AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 YANVAR 2019-cu il ŞƏNBƏ № 08 (6335) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 yanvar 2019-cu il.**

## Naxçıvan Muxtar Respublikasının bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Polad Vəli oğlu Həsənov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi və həmin məhkəmənin sədri təyin edilsin.

**2.** Qabil Neymət oğlu Məmmədov Naxçıvan Şəhər Məhkəməsinin hakimi və həmin məhkəmənin sədri təyin edilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 yanvar 2019-cu il.**

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.**

## Prezident İlham Əliyevin giriş nitqi

- Bu gün biz Nazirlər Kabinetinin iclasında 2018-ci ilin əsas yekunlarını müzakirə edəcəyik, eyni zamanda, bu il görüləcək işlər haqqında danışacağıq.

2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək.



Keçən il regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatdı. Bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri var. Bu il biz regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Demək olar ki, proqramın əsas hissəsi hazırdır.

Keçən il mən Azərbaycanın bölgələrinə 24 səfər etmişəm. Bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək onları narahat edən problemlərin həlli istiqamətində əlavə göstərişlər verilir. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanmışdır. Bu sərəncamlar bölgələrimizdə çox böyük əks-səda verir və böyük nəticələrə gətirib çıxarır. Dediyim kimi, bölgələrə səfərlərim həm vətəndaşlarla təmasda olmaq, həm görülən işlərə nəzarət etmək, həm də gələcəkdə görüləcək işlərlə bağlı düzgün addımların atılması üçün gözəl imkan yaradır. Mən Azərbaycanın hər bir rayonunda dəfələrlə olmuşam, ən azı hər bir rayonda 5 dəfə, elə rayon var ki, 10 dəfədən çox olmuşam və bu müntəzəm səfərlərin çox böyük əhəmiyyəti var.

Ölkəmizdə, ümumiyyətlə, daxili vəziyyət - həm ictimai-siyasi, həm iqtisadi-sosial məsələlərlə bağlı vəziyyət sabitdir. Yəni deyə bilərəm ki, 2018-ci il əvvəlki illərdən çox da fərqlənməyib, ölkəmiz dinamik inkişaf yolu ilə gedib.

Həmçinin hesab edirəm ki, keçən il xarici siyasət sahəsində də uğurlu olubdur. Mən keçən il xarici ölkələrə 16 səfər etmişəm və Azərbaycana 16 dövlət və hökumət başçısı səfər edib. Bu, bir daha onu göstərir ki, bizim xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Əlbəttə, hesab edirəm ki, biz, ilk növbədə, qonşularımızla əlaqələrimizi daha yüksək pilləyə qaldıra bilmişik. Keçən il qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim çoxsaylı görüşlərim olub və bu görüşlərdə praktiki məsələlər həll edilib. Hər bir ölkə üçün onun qonşuları ilə yaxşı münasibətlərin qurulması çox vacib amildir. Azərbaycan o ölkələrdəndir ki, Ermənistandan başqa bütün qonşularımızla çox düşünülmüş siyasət apararaq gözəl münasibətləri qura bilib və ölkəmiz bu münasibətlərdən faydalanır. Həm regional təhlükəsizliyin inkişafı, eyni zamanda, nəqliyyat, energetika, ticarət məsələlərinin uğurla həlli, o cümlədən qonşularımızla münasibətlərdən asılıdır. Bir sözlə, qonşu ölkələrlə əlaqələrimiz çox müsbətdir və əminəm ki, bu il də bu istiqamətdə yeni müsbət addımlar atılacaqdır.

Bildiyiniz kimi, Azərbaycan müsəlman aləmində çox böyük hörmət, nüfuz qazanıb. Bizim İslam həmrəyliyi ilə bağlı atdığımız addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir. Yəni, bizim apardığımız siyasət İslam aləmində həmrəyliyi, əməkdaşlığı möhkəmləndirir. Həm ölkə daxilində, həm xaricdə bu istiqamətdə keçirdiyimiz tədbirlər İslam birliyini daha da möhkəmləndirir. Təsadüfi deyil ki, keçən il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir və Naxçıvan şəhəri bu şərəfli adı çox böyük uğurla daşımışdır. Biz bu il də müsəlman ölkələri ilə əlaqələrimizi müxtəlif istiqamətlərdə inkişaf etdirəcəyik və beləliklə, müsəlman aləmində bizim nüfuzumuz, çəkimiz, rolumuz daha da artacaqdır.

Bildiyiniz kimi, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığın prioritetləri adlı mühüm sənəd imzalanmışdır. Bu sənəddə bir çox məsələlər öz əksini tapır. Xüsusilə onu vurğulamalıyam ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə aparılan işlər arasında bu sənədin xüsusi yeri vardır. Beləliklə, Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz fikrini birmənalı şəkildə ortaya qoyur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə də qəbul edilmiş yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapmışdır.

Biz ötən il Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirmişik. Bildiyiniz kimi, bu il Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcək. Əlbəttə ki, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək bizim nüfuzumuzu daha da artıracaq, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi idi. İmzalanmış Konvensiya bu məsələnin həlli üçün çox böyük əhəmiyyət daşıyır. Şadıq ki, bizim uzun illər ərzində müdafiə etdiyimiz mövqe bu Konvensiyada tam öz əksini tapmışdır. Bu sənədin imzalanması bir daha göstərir ki, Xəzər dənizi sülh, əməkdaşlıq, təhlükəsizlik dənizidir. Bu Konvensiyanın çox böyük əhəmiyyəti var. Hesab edirəm ki, bu sənədin imzalanması hər bir Xəzəryanı ölkənin böyük diplomatik və siyasi uğurudur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz bu ifadələr öz əksini tapıbdır. Danışıqların davam etdirilməsi prosesi başlanmışdır, baxmayaraq ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi. Hətta belə bir fikirlər səslənirdi ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Biz dərhal belə cəhdləri rədd etdik. Əlbəttə ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və öz fikirlərini bildiriblər. Nəticə etibarilə danışıqlar prosesi bərpa edildi. Xarici işlər nazirləri artıq bir neçə dəfə görüşmüşlər və danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Danışıqlar prosesi üçün yalnız bu format məqbuldur.

Bildiyiniz kimi, keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. İyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi.

**(davamı 2-ci səhifədə)**

## "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1423-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1423-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 yanvar 2019-cu il.**

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**(əvvəli 1-ci səhifədə)**

Bu da təbiidir və bu, kriminal rejimin məntiqi acı sonudur. Bu məsələdə əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni, əhalinin azalması prosesi geniş vüsət alıbdır. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı.



Biz dəfələrlə demişdik ki, Ermənistanda iyirmi il ərzində kriminal, qaniçən xunta rejimi hökm sürür. Ancaq əfsuslar olsun ki, bəzi beynəlxalq təşkilatlar buna göz yumurlar. İndi sual olunur, necə ola bilər ki, son illərdə Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə beynəlxalq təşkilatlar müsbət rəy verirlər. Axı, son parlament seçkiləri göstərdi ki, hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş dəstə 5 faiz də səs yığa bilməyib. Bunu hər kəs etiraf edir. Ancaq əvvəlki illərdə özlərinə 50 faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qınaq obyektinə çevrilməmişdir?! Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər saxtalaşdırılıb? Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir? Çox yaxşı bilirdilər, amma göz yumurdular. Nəyə görə? İkili standartlara görə. Nəyə görə? Çox güman ki, burada hansısa təmənna ilə bağlı başqa məsələlər olub. Heç kimə sirr deyil ki, Ermənistan beynəlxalq arenada konyak diplomatiyasını işə salıb və bir çox siyasətçiləri satın alıb. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amili birinci yerdə idi.

Ona görə mən hesab edirəm ki, bu məsələ müvafiq beynəlxalq orqanlar tərəfindən çox ciddi araşdırılmalıdır və kriminal rejimə iyirmi il ərzində dəstək verən, onun cinayətlərinə göz yuman, onun əlindən orden, medal alan dırnaqarası siyasətçilər məsuliyyətə cəlb olunmalıdırlar. Bizim tələbimiz bundan ibarətdir. Əgər bu, olmasa, demək heç nə dəyişilmir. Əgər bu, olmasa, onda bu gün bəzi beynəlxalq təşkilatlar tərəfindən səslənən ədalət, insan haqları haqqında cəfəng bəyanatlar elə cəfəng bəyanatlar kimi qalacaq. Sarkisyan rejiminə, onun əməllərinə dəstək verən, göz yuman beynəlxalq təşkilatlar əgər öz günahını yumaq istəyirlərsə, qoy, etiraf etsinlər ki, onlar iyirmi il ərzində cinayətkarlarla əlbir olublar və beləliklə, bu cinayətlərdə onların da əli, onların da payı var.

Mən dəfələrlə demişəm ki, Ermənistanı kriminal rejim idarə edir. İndi bunu erməni xalqı deyir. Onların keçmiş rəhbərləri cinayətkardır, bu, sübut olunub. Onların qəhrəmanları qorxaqdır, onların generalları oğrudur. Bax, budur, Ermənistanın indiki vəziyyəti. Müstəqilliyi cəmi 27 ilə bərabər olan bir ölkəni əgər 20 il ərzində cinayətkarlar idarə ediblərsə, onda bu ölkə haqqında təsəvvür yaratmaq o qədər də çətin deyil.

Mən dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Eyni zamanda, biz keçən il əlbəttə ki, hərbi potensialımıza böyük diqqət göstərmişik və bu sahədə böyük nailiyyətlər var. Bizim ordumuzun döyüş qabiliyyəti artır və Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut edib. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik. Bu, çox uğurlu əməliyyat idi. Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır. Yəni, bu hadisə - Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək. Sadəcə, danışıqlara ümid olduğu üçün biz danışıqlar yolunu hələ ki, əsas vasitə kimi görürük. Ancaq, eyni zamanda, hərbi gücümüzü də artırırıq. Döyüş qabiliyyətimizlə bağlı keçən il aparılan işlər əlbəttə ki, çox yüksək qiymətə layiqdir. Uğurlu Naxçıvan əməliyyatında fərqlənən hərbçilərə dövlət tərəfindən müvafiq mükafatlar verilmişdir.

Biz keçən il ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı çox böyük işlər gördük. İki dəfə keçirilən hərbi paradda biz texnikamızın bir hissəsini nümayiş etdirdik. Mən onların arasında əlbəttə ki, xüsusilə uzaqmənzilli “Polonez” və “LORA” raket sistemlərini qeyd etmək istərdim. Qarşı tərəfin bu sistemlərə qarşı heç bir müdafiə imkanı yoxdur. Bu sistemlər 300 kilometr və ondan çox məsafəni qət edərək çox yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvə ilə istənilən hərbi hədəfi məhv edə bilər. Mən bir daha demək istəyirəm, düşmənin elə bir hərbi hədəfi yoxdur ki, biz onu dəqiqliklə məhv edə bilməyək.

Bu sistemlərin əldə edilməsi, əlbəttə ki, bizim hərbi gücümüzü daha da artırır. Eyni zamanda, keçən il yeni pilotsuz döyüş uçuş aparatlarının əldə edilməsi bizim hərbi gücümüzü daha da artırır. Əlbəttə ki, son illər ərzində hava hücumuna, raket hücumuna qarşı aldığımız sistemlər müdafiə potensialımızı gücləndirir və digər sistemlər bizim hücum gücümüzü artırır. Bunu hər kəs bilir. Hərbi sahədə baş verən hadisələr heç kim üçün sirr deyil. Qarşı tərəf də - düşmən də bilir və bilməlidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və bu il bu istiqamətdə əlavə addımlar atılacaqdır.

Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb. Keçən il 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilibdir. Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Bu il daha da çox mənzil veriləcək, o cümlədən məcburi köçkünlər üçün yeni şəhərciklər tikiləcək. Yəni, bu məsələ daim diqqət mərkəzindədir. Biz hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin problemlərinin həlli üçün bu il də böyük vəsait nəzərdə tutmuşuq. Biz bu məsələləri həll edəcəyik.

Əlbəttə, bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və biz bunu yaradırıq. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək. Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb. İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir. Deyə bilərəm ki, beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları Azərbaycanda gedən prosesləri çox böyük maraqla izləyirlər və bizim işimizə çox yüksək qiymət verirlər. Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir.

Bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir. Mən bəzi göstəriciləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Ümumi daxili məhsul, yəni, iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olmuşdur. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Əlbəttə ki, bizim arzularımızı tam əks etdirmir. Ancaq, eyni zamanda, dünyada gedən proseslərə baxdıqda hesab edirəm ki, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. Bu, onu göstərir ki, sənayeləşmə siyasətimiz öz gözəl nəticələrini verir.

İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıb. Görürsünüz ki, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Əgər biz 2017-ci ilə nəzər salsaq görərik ki, inflyasiya 12 faizdən çox idi, indi isə 2,3 faizdir. Manatın məzənnəsi sabitdir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Hesab edirəm ki, bu da yaxşı göstəricidir. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni, bu, onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaqdır.

Biz keçən il valyuta ehtiyatlarımızı artırmışıq. Baxmayaraq ki, xərclərimiz də az olmayıb, eyni zamanda, biz valyuta ehtiyatlarımızı 3 milyard dollar məbləğində artıra bildik. Beləliklə, bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Xarici borc 22,8 faizdən 19 faizə düşüb və bu da çox müsbət haldır. Yəni, indi Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Qarşıya vəzifə qoyulub ki, biz bu borcu yaxın illərdə daha da azaldaq. Bu məsələ ilə bağlı indi müvafiq proqram hazırlanıb. Mən hesab edirəm ki, biz borcu tədricən azalda-azalda getməliyik. Düzdür, 19 faiz də indi dünya miqyasında çox gözəl göstəricidir. Elə ölkələr var ki, xüsusilə inkişaf etmiş ölkələr orada xarici borc ümumi daxili məhsulun 100-120 faizini təşkil edir. Əgər hansısa ölkədə 50 faiz təşkil edirsə, o ölkə sabit, iqtisadi cəhətdən sabit ölkə kimi tanına bilər. Bizdə isə 19 faizdir, mən hələ bunu çox görürəm. Hesab edirəm ki, bu, daha da düşməlidir və düşəcəkdir. Əlbəttə, əgər xarici borcumuzu valyuta ehtiyatlarımızla müqayisə etsək görərik ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, istənilən vaxtda biz xarici borcu tam ödəyə bilərik. Bu, bizim siyasətimizi əks etdirir, onu göstərir ki, biz baxmayaraq ki, bir çox kreditlər ala bilirik, ancaq mən göstəriş vermişəm, kreditlərin alınması məhdudlaşdırılsın, buna indi ehtiyac yoxdur. Biz ancaq texnoloji tutumlu layihələrə bəzi hallarda, istisna hal kimi müəyyən məbləğdə kredit ala bilərik. Çünki buna ehtiyac yoxdur, öz pulumuz da var və valyuta ehtiyatlarımız da artır.

Keçən il 118 min daimi iş yeri yaradılmışdır. İşsizliyin aşağı səviyyədə saxlanması üçün bu, çox əhəmiyyətli məsələdir. İxracla bağlı yaxşı göstəricilər var. İxrac 36 faiz artıb. Ümumi rəqəmi götürsək, ixracımız 19 milyard dollara çatıb. Xarici ticarət balansında müsbət saldo - yəni, ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir. Əgər ölkələrə biz nəzər salsaq görərik ki, bu da dünya miqyasında nadir hallarda müşahidə olunan mənzərədir. Ölkələrin əksəriyyətində idxal ixracı üstələyir. Azərbaycanda isə biz bunun əksini görürük. Özü də biz ölkəyə ixracla bağlı daha çox - 8,6 milyard dollar pul gətirmişik, nəinki xərcləmişik. Əgər biz buraya xarici turistlərdən gələn vəsaiti əlavə etsək, onda görərik ki, rəqəm daha da artacaq. Onu da bildirməliyəm ki, keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib. Bu, 6 faiz artım deməkdir. Aparılan hesablamalara görə, bu xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər. Turizmin inkişafı ilə bağlı apardığımız siyasət, görürsünüz ki, ilk növbədə, maliyyə sahəsində özünü büruzə verir. Həm ölkəmizi tanıtdırırıq, həm də pul qazanırıq.

Beləliklə, iqtisadi göstəricilərimiz elədir ki, dünyanın istənilən ölkəsi bu göstəriciləri böyük qəhrəmanlıq kimi qəbul edə bilər, bizim üçün isə bu, adi haldır. Çünki bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir. Ümumiyyətlə, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir. Bu dəstək keçən il prezident seçkilərində bir daha özünü göstərdi. Azərbaycan xalqı mənə bir daha çox böyük etimad göstərmişdir. Bildiyiniz kimi, seçkilər ərəfəsində keçirilmiş rəy sorğuları, seçkilər günü keçirilmiş exit-pollar rəsmi nəticələrlə tam üst-üstə düşüb. Bu, bir daha onu göstərir ki, seçkilərin nəticələrində Azərbaycan xalqının iradəsi tam öz əksini tapıb. Bu, görülən işlərə verilən yüksək qiymətdir. Görülən işlər isə göz qabağındadır.

Keçən ilin önəmli hadisələrini sadalamaq üçün bir neçə saat vaxt lazımdır. Mən bir neçə önəmli hadisəni qeyd etmək istərdim. Biz keçən il üçüncü peyki orbitə buraxdıq və Azərbaycan kosmik dövlət kimi öz mövqelərini daha da möhkəmləndirdi. Keçən il Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, sözün əsl mənasında, tarixi hadisədir. Çünki bu hadisə bundan sonra onilliklər ərzində Azərbaycana böyük xeyir, həm siyasi, həm də iqtisadi və maliyyə mənfəəti gətirəcək. Keçən il Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP layihəsi də işə düşdü və artıq fəaliyyətdədir. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü reallaşdı. Bu, bizim böyük uğurumuzdur, tarixi uğurumuzdur. Ölkəmizi nəqliyyat mərkəzinə çevirmək üçün keçən il çox önəmli hadisə baş vermişdir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı öz işinə başlamışdır. Beləliklə, Azərbaycan tranzit ölkə kimi artıq özünü dünyada təsdiqlədi.

Bir daha demək istəyirəm, keçən il bir çox hadisələr olub ki, onların haqqında danışmaq olar. Ancaq hesab edirəm ki, mən Azərbaycan xalqını keçən il görülmüş əsas işlər haqqında müəyyən dərəcədə yığcam formada məlumatlandırıram. Nazirlər Kabinetinin toplantıları, əlbəttə, o cümlədən xalqa verilən hesabatdır. Mən müxtəlif tədbirlərdə, müxtəlif görüşlərdə xalqa müntəzəm olaraq hesabatlar verirəm. Eyni zamanda, görülmüş işlər haqqında hesabatın bu formatda da verilməsi hesab edirəm ki, düzgün addımdır.

Bu gün biz bu il görüləcək işlər haqqında danışacağıq. Müvafiq tapşırıqlar veriləcək ki, 2019-cu il də ölkəmiz üçün uğurlu il olsun.

* * *

**Maliyyə naziri Samir ŞƏRİFOV çıxış edərək dedi:**



-Möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları.

Müsəlman Şərqində ilk demokratik respublikanın qurulmasının 100 illiyi münasibətilə “Cümhuriyyət ili” kimi qeyd etdiyimiz 2018-ci il ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatındakı hadisələrin əhəmiyyəti və zənginliyi baxımından uğurlu bir il kimi səciyyələndirilməlidir.

Yola saldığımız ilin ən əlamətdar hadisəsi aprel ayında keçirilmiş prezident seçkilərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin inamlı və parlaq qələbəsi olub. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki dönməz sabitliyə və təhlükəsizliyə, davamlı inkişafa, etibarlı sosial rifaha, tərəqqiyə, modernləşməyə və firavan gələcəyə aparan və son 15 ildə özünü təsdiq etmiş uğurlu iqtisadi və sosial kursun davam etməsinə növbəti dəfə tam dəstəyini ifadə edib.

2018-ci il dövlətimizin müasir tarixində xüsusi yerə layiq olan bir sıra layihələrin ərsəyə gəlməsi, o cümlədən nəhəng transmilli “Cənubi Qaz Dəhlizi” layihəsi çərçivəsində “Şahdəniz-2” və TANAP layihələrinin uğurla reallaşması, “Azərspace-2” peykinin orbitə buraxılması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin, Sumqayıtda polipropilen zavodunun, Azərbaycanın dövlət investisiyası ilə Türkiyədə böyük neft emalı zavodunun istismara verilməsi ilə də səciyyələnir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüskarı olduğu bu layihələr uzun illər ərzində ölkə iqtisadiyyatının inkişafına birbaşa və dolayısı ilə mühüm töhfələr verəcək.

Ötən il “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa, Vergi Məcəlləsinə mühüm dəyişikliklər edilib, yeni büdcə və ortamüddətli xərclərin formalaşdırılması qaydası, dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli strategiya, yeni vahid büdcə təsnifatı təsdiqlənib. Qeyd olunan sənədlər qeyri-neft sektorunda vergi yükünün azaldılmasını, büdcənin sabitliyinin və ortamüddətli dayanıqlığının təmin edilməsini, dövlət xərclərinin prosiklikliyinin aradan qaldırılmasını, maliyyə inzibatçılığının və hesabatlılığın daha da artırılmasını, ölkədə dayanıqlı və idarəolunan dövlət borcunun səviyyəsinin müəyyən edilməsini, bu sahədə risklərin qarşılanması sisteminin təkmilləşdirilməsini və nəzarət mexanizminin gücləndirilməsini özündə birləşdirir.

2018-ci il, eyni zamanda, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi, qlobal ticarətdə proteksionizmin və ticarət müharibələrinin vüsət aldığı bir zamanda xarici şokların ölkə iqtisadiyyatına təsirlərinin neytrallaşdırılması ili kimi də dəyərləndirilə bilər. Büdcə-fiskal siyasətin monetar siyasətlə sıx əlaqəli şəkildə həyata keçirilməsi nəticəsində il ərzində milli valyutanın sabitliyi qorunub, inflyasiyanın cilovlanmasına və ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz-bənd azalmasına nail olunub. Xarici ticarət balansındakı müsbət saldo tədiyyə balansının cari əməliyyatlar hesabının 5 milyard ABŞ dollarına qədər, məcmu valyuta ehtiyatlarının isə ötən ilin əvvəlinə nisbətən 3,0 milyard ABŞ dolları məbləğində və ya 6,5 faiz artmasını şərtləndirib.

2018-ci ilin sonuna Mərkəzi Bankın valyuta ehtiyatları nəzərə alınmadan hökumətin valyuta ehtiyatları xarici dövlət borcumuzu 4,3 dəfə üstələməklə ümumi daxili məhsulun 83,5 faizini təşkil edib.

Ötən il ölkə iqtisadiyyatının dinamik inkişafı dövlət və icmal büdcələrinin icrasına da öz müsbət təsirini göstərib. Operativ məlumatlara əsasən, 2018-ci ilin icmal büdcəsinin gəlirləri 31 milyard 35 milyon manat, xərcləri 26 milyard 334 milyon manat icra olunub. İcmal büdcədə 4 milyard 700 milyon manat büdcə artıqlığı və ya ümumi daxili məhsula nisbətdə 5,9 faizlik profisit əldə edilib. 2017-ci illə müqayisədə gəlirlər müvafiq olaraq 6 milyard 750 milyon manat və ya 28,9 faiz, xərclər isə 1 milyard 151 milyon manat və ya 4,6 faiz çox icra olunub.

2018-ci ildə dövlət büdcəsinin gəlirləri 22 milyard 411 milyon manat və yaxud təsdiq olunmuş proqnoza nisbətən 262,0 milyon manat çox icra edilib. Dövlət büdcəsinin kəsiri 951,0 milyon manat proqnoza qarşı faktiki olaraq 644,0 milyon manat az olub və ya 307,0 milyon manatadək daralıb.

Qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının artımla icra edilməsi xüsusilə qeyd olunmalıdır. Bu daxilolmalar 9 milyard 10 milyon manat və yaxud 102,4 faiz icra edilməklə proqnozda nəzərdə tutulduğundan 207,0 milyon manat, 2017-ci illə müqayisədə isə 378,0 milyon manat və ya 4,4 faiz çox təşkil edib.

2018-ci ildə Vergilər Nazirliyinin xətti ilə daxilolmalar 7 milyard 418 milyon manat və yaxud 100,5 faiz, 2017-ci ilə nisbətən 444,0 milyon manat və ya 6,4 faiz çox icra edilib.

Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə 3 milyard 434 milyon manat və ya proqnoza nisbətən 244,0 milyon manat çox vəsait daxil olub. Bu 2017-ci illə müqayisədə 825,0 milyon manat və ya 31,6 faiz çoxdur.

Dövlət əmlakının özəlləşdirilməsi üzrə proqnoz 1,2 faiz artımla yerinə yetirilərək büdcəyə 101,2 milyon manat vəsait təmin edilib.

2018-ci ilin dövlət büdcəsinin xərcləri 22 milyard 719 milyon manat və yaxud 98,4 faiz icra edilib ki, bu da 2017-ci ilin icra göstəricisindən 0,3 faiz-bənd çoxdur.

Ötən il dövlət və icmal büdcələrdə nəzərdə tutulan bütün sosial öhdəliklər, əsas dövlət proqramları və prioritet kəsb edən layihələr tam həcmdə maliyyələşdirilib.

Hesabat ilində dövlət büdcəsi xərclərinin 31,7 faizi və ya 7 milyard 197 milyon manatı sosialyönlü xərclərin payına düşür ki, bu da 2017-ci illə müqayisədə 506,0 milyon manat və ya 7,6 faiz çoxdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına uyğun olaraq ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ölkədə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olunub, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları da 10 faiz artırılıb. Bu tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsində əlavə olaraq 446,0 milyon manat təminat yaradılıb.

Sosialyönlü siyasətin digər vacib istiqamətləri kimi qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2018-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 436,0 milyon manat, sosial mənzillərin tikintisi və güzəştli ipoteka proqramının davamı üçün müvafiq olaraq 100,0 və 50,0 milyon manat vəsait ayrılıb.

Eyni zamanda, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri 626 mənzillə təmin edilib, ordumuzda uzun müddət qüsursuz xidmət etmiş hərbi qulluqçuların mülkiyyətinə ötən il 394 mənzil verilərək, ümumilikdə hərbi qulluqçulara verilmiş mənzillərin sayı 1284-ə çatdırılıb.

Ölkəmizdə iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlığa dövlət dəstəyinin verilməsi möhtərəm Prezidentimizin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə dövlət tərəfindən görülən məqsədyönlü tədbirlər Dünya Bankının “Doing Business 2019” təhlilində öz əksini tapıb, ölkəmiz ümumi reytinqdə yeni rekorda imza ataraq dünyada 10 ən islahatçı dövlət siyahısına daxil olub. Bu təhlil ölkəmizdə əlverişli investisiya mühitinin cəlbediciliyinin mühüm göstəricisi olmaqla, özəl, xarici və daxili sərmayələrin iqtisadiyyatımıza, xüsusən onun qeyri-neft sahələrinə axını üçün əlavə güclü təkan verir.

Sahibkarlığa dövlət dəstəyinin əyani göstəricisi kimi qeyd etmək yerinə düşər ki, hesabat ili ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370,0 milyon manat məbləğində subsidiya və güzəştlər verilib, Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160,0 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277,0 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17,0 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib.

Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15,0 milyon manat məbləğində ixrac təşviqləri ödənilib.

Hesabat ilində sosial, fiziki infrastruktur və digər investisiya təyinatlı layihələrin maliyyələşdirilməsi üçün dövlət investisiya proqramı hesabına 5 milyard 64 milyon manat və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu hesabına 301,0 milyon manat - cəmi 5 milyard 365 milyon manat vəsait sərf edilib.

Möhtərəm Prezident, 2018-ci ildə təsdiq etdiyiniz dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli strategiyanın icrasına başlanılıb və ötən il ərzində görülən tədbirlər hesabına xarici dövlət borcunun ümumi daxili məhsula nisbəti ilin əvvəlindəkindən 3,8 faiz-bənd azalıb və 19,0 faiz təşkil edib.

Bununla yanaşı, daxili qiymətli kağızlar bazarının təşviqi, bank və sığorta sektorunun inkişafı üçün maliyyə alətlərinə olan tələbatın ödənilməsi, habelə dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi məqsədilə il ərzində daxili bazarda 1 milyard 81 milyon manat məbləğində daxili dövlət borc kağızları yerləşdirilib.

Ümumiyyətlə, dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclərə 2 milyard 260 milyon manat vəsait istifadə olunub.

Möhtərəm cənab Prezident.

Sizin də qeyd etdiyiniz kimi, yola saldığımız 2018-ci ildə Azərbaycan Respublikasının uğurlu, dinamik inkişafı təmin olunub, ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilib, 2019-cu və gələcək illərin iqtisadi inkişafının təməlləri atılıb. Tam əminliklə söyləmək olar ki, Sizin rəhbərliyinizlə 2019-cu ildə də davam etdiriləcək köklü və çoxşaxəli iqtisadi islahatlar, məqsədyönlü proqramlar iqtisadiyyatımızın inkişafına və xalqımızın rifahının yüksəldilməsinə öz böyük töhfəsini verəcək.

İcazə verin, çıxışımın sonunda Sizi əmin edim ki, bugünkü iclasda verəcəyiniz tapşırıqlar da nəzərə alınmaqla, 2019-cu ildə qarşıya qoyulan hədəflərin təmin olunmasında Maliyyə Nazirliyinin kollektivi səylərini əsirgəməyəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil BABAYEV çıxış edərək dedi:**



-Möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan və Sizin rəhbərliyinizlə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkəmizdə davamlı iqtisadi artım təmin olunur, çoxşaxəli sosial proqramlar reallaşdırılır, sosial müdafiə sistemi yeni inkişaf mərhələsinə qədəm qoyur.

Cənab Prezident, pensiya, ünvanlı yardım, əlillik və məşğulluq sahələrində şəffaflığın və sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi və elektron sistemlərin tətbiqi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında qoyduğunuz əsas vəzifələrdir. Bu vəzifələrə uyğun olaraq, sosial müdafiə sisteminin inkişafına və mənfi halların aradan qaldırılmasına xidmət edən geniş islahatlar paketi hazırlanıb və Sizin dəstəyinizlə icra olunur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlərin vahid platforma və “bir pəncərə”dən, şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi məqsədilə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və “DOST” mərkəzlərinin yaradılmasına başlanıb. Sizin 2018-ci il 9 avqust və 10 dekabr tarixli fərmanlarınıza əsasən “DOST” layihəsinin hüquqi və institusional işləri artıq başa çatıb.

“DOST” mərkəzlərində birbaşa, telefon və internetlə, səyyar və tam avtomatlaşdırılmış qaydada 124 xidmət göstəriləcəkdir. Tezliklə Yasamal rayonunda ilk “DOST” mərkəzinin açılması, cari ildə Bakıda daha 3 mərkəzin yaradılması nəzərdə tutulur.

Eyni zamanda, elektron xidmətlərin genişləndirilməsi məqsədilə Sizin tapşırıqlarınızın və 2018-ci il 5 sentyabr tarixli Fərmanınızın icrası olaraq “e-sosial” internet portalı, “Məşğulluq” sistemi və 18 alt sistemdən ibarət Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılıb. “E-sosial” portalı ölkəmizdə ilk dəfə olaraq sosial reyestri formalaşdırıb, vətəndaşlara əmək müqavilələri, məşğulluq, pensiya kapitalı, mənzil və avtomobil növbəsi, əlillik, reabilitasiya və digər məlumatlara birbaşa çıxış imkanı yaradıb, şəffaflığı və ictimai açıqlığı təmin edib.

Yanvar ayında istifadəyə veriləcək “Məşğulluq” sistemi işsiz və işaxtaran şəxslərin reyestrini, iş yerlərinin vakansiya bankını və məşğulluq xidmətlərinin elektronlaşmasını təmin edəcəkdir. Bu sistem vasitəsilə hər bir şəxs arzuladığı vakansiyaya elektron müraciət edəcək, eyni zamanda, işəgötürənlər işçi qüvvəsinə sərbəst çıxış əldə edəcəklər.

Pensiya təyinatı sahəsində “Pensiyaçının dostu” proqramı hazırlanıb və cari ildən avtomatlaşdırılmış pensiya təyinatına başlanıb. Bu innovativ yanaşma əsasında, vətəndaşın hüququ yarandığı gün elektron qaydada pensiya təyinatı aparılır, ona pensiya məbləği, ödəniş kartını əldə edəcəyi bank filialı barədə “sms”, e-mail və məktub göndərilir.

İslahatın tərkib hissəsi kimi, fərdi hesabında pensiya kapitalı olan şəxslərə 2006-cı ilədək 25 il sığorta stajı avtomatik hesablanır. Bu mühüm sosial təşəbbüs vətəndaşlarımıza Sizin qayğınızın növbəti təzahürüdür və cari ildə əlavə olaraq 19 min 500 nəfərin pensiya almasına və onların aylıq gəlirlərinin 48 faiz artmasına imkan yaradacaqdır. Artıq 628 şəxsə elektron qaydada pensiya təyin edilib və pensiya hüququ yaranacaq şəxslərin 70 faizinin, yəni 36 min nəfərin pensiya təyinatı məhz avtomatlaşdırılmış şəkildə aparılacaqdır.

Möhtərəm cənab Prezident, hesabat ilində inzibatçılığın təkmilləşdirilməsi və ciddi nəzarət tədbirləri nəticəsində Dövlət Sosial Müdafiə Fondu tərəfindən sosial sığorta haqları 2017-ci ilə nisbətən 246 milyon manat çox yığılaraq 2 milyard 332 milyon manata çatıb. Qeyri-büdcə sektoru üzrə yığım 1 milyard 494 milyon manatı keçib, əvvəlki illə müqayisədə 152 milyon manat çox, proqnozla müqayisədə isə 6,1 faiz və ya 86 milyon manat çox olub.

Ötən il Fondun xərcləri 3 milyard 682 milyon manat təşkil edib və bunun 97,8 faizi əhaliyə ödənişlərə yönəldilib. Sizin sərəncamlarınızla ölkə üzrə əmək pensiyalarının sığorta hissəsi 5,7 faiz, sosial müavinətlər və təqaüdlər isə 10 faiz artırılıb. Beləliklə, 2018-ci ildə pensiyaların orta aylıq məbləği 6,8 faiz, yaşa görə pensiya isə 7,3 faiz çox olub.

Aztəminatlı ailələrin sosial müdafiəsi məqsədilə ünvanlı dövlət sosial yardımı proqramının icrası davam edib, dekabrda yardımın orta aylıq məbləği 189 manata çatıb, il ərzində 104 milyon manat vəsait xərclənib. Bu sahədə mənfi halların qarşısının alınması və ünvanlılığın təmin edilməsi nəticəsində təyinatların sayı 53 faiz azalıb, büdcə vəsaitlərinə 102 milyon manat və ya 49 faiz qənaət edilib.

**(davamı 3-cü səhifədə)**

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**(əvvəli 2-ci səhifədə)**

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə aztəminatlı ailələrə yardım verilməsi haqqında Sərəncamınızla 172 min üzvü olan 42895 ailəyə vəsait ödənilib.

Şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı proqramı da uğurla davam edib. 1997-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə başlanan proqram ildən-ilə genişlənib və 6654 ailəyə mənzillər təqdim edilib.

Sizin və birinci xanım Mehriban Əliyevanın avqustun 1-də müharibə əlilləri və şəhid ailələrinə mənzillərin verilməsi mərasimində iştirakınız onlara yüksək diqqətin növbəti təzahürü olub. Tədbirdən bir gün sonra imzaladığınız Sərəncamla ehtiyat fondundan 20 milyon manat əlavə vəsaitin ayrılması nəticəsində 2018-ci ildə onlara 626 mənzil və 265 minik avtomobili verilib.

Möhtərəm cənab Prezident, 2018-ci ildə keçirilmiş seçkilərdə əhalinin mütləq əksəriyyətinin etimadını yenidən qazanaraq, Prezident seçildikdən sonra imzaladığınız ilk Fərman da şəhid ailələri ilə bağlı növbəti humanist addımınız olub. Fərmanın icrası olaraq 11 min manatlıq ödənişin verilməsi üçün elektron xidmət yaradılıb və 3097 şəhidin 4190 vərəsəsinə məmur təması olmadan 34 milyon manat vəsait ödənilib.

Nazirlik qarşısında qoyduğunuz vəzifələrdən biri də əlilliklə bağlı yeni konsepsiyanın hazırlanması və əlilliyi olan şəxslərin təminatının gücləndirilməsidir. Bununla əlaqədar olaraq, Dünya Səhiyyə Təşkilatının və Avropa ölkələrinin standartları əsasında əlillik üzrə yeni meyarlar hazırlanıb. Bu meyarlarda əlillik dərəcəsinin ənənəvi üç qrup əvəzinə, əmək və özünəqulluq qabiliyyətinin itirilməsi faizi əsasında qiymətləndirilməsi, sosial reabilitasiya və əməyə adaptasiya imkanları da nəzərə alınıb.

Əlillik təyinatlarında şəffaflığın təmin edilməsi məqsədilə ciddi nəzarət tədbirləri görülüb, Səhiyyə Nazirliyi ilə birgə iş nəticəsində 2018-ci ilin dördüncü rübündə birinci rüblə müqayisədə əlillik təyinatı 61 faiz, I qrup təyinatları isə 56 faiz azalıb. Əsassız təyinatlar ləğv edilərək, 3 milyon manat büdcə vəsaitinə qənaət olunub.

Hesabat ilində 11 min 900 nəfərə reabilitasiya xidmətləri göstərilib, 35 min 300 reabilitasiya vasitəsi, 7557 sanator-kurort yollayışı verilib.

Çox hörmətli cənab Prezident, hesabat ilində işaxtaran vətəndaşlar üçün məşğulluq imkanlarının yaradılması, aktiv əmək bazarı tədbirlərinin genişləndirilməsi islahatları da davam etdirilib. 2018-ci ildə Dövlət Məşğulluq Xidməti tərəfindən əvvəlki ilə nisbətən 8,1 faiz çox olmaqla 51 min 774 nəfər işlə təmin edilib, 118 min 138 nəfər peşəyönümü məsləhətlərinə, 2914 nəfər peşə hazırlığı kurslarına cəlb olunub, 8760 nəfərə işsizlikdən sığorta və müavinət ödənilib. Qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində əmək müqavilələrinin sayı 91,3 min artıb.

Özünüməşğulluq proqramı 2018-ci ildə 6,5 dəfə genişlənib, 7267 nəfər biznes planlarını uğurla müdafiə edib. 5000-dən çox ailə aktivlərlə təmin olunub və kiçik ailə təsərrüfatlarını yaradıb.

Proqrama cəlb olunanların əksəriyyətini ünvanlı yardım alanlar, məcburi köçkünlər, əlilliyi olanlar, şəhid ailələri, qadınlar və gənclər təşkil edib. Heydər Əliyev Fondu bu istiqamətdə Nazirliyə dəstək verib və "Sosial bağlar" layihəsi çərçivəsində 125 ailə üçün bağçılıq təsərrüfatları yaradılıb.

Tapşırığınıza əsasən ictimai işlərin təşkilinə dair "İşsizin dostu" adlı yeni proqram hazırlanıb, "DOST İŞ MƏRKƏZİ" yaradılıb. Mərkəz vasitəsilə bu il 30 minədək işsiz şəxs ictimai işlərə tam şəffaf şəkildə cəlb ediləcəkdir.

Cənab Prezident, Sizi əmin edirəm ki, Nazirliyin kollektivi sosial inkişaf proqramınızın yüksək səviyyədə icrası üçün 2019-cu ildə də bütün səylərini səfərbər edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

**Dövlət Gömrük Komitəsinin sədri Səfər MEHDİYEV çıxış edərək dedi:**



- Möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının davamı olaraq zamanın çağırışlarına adekvat qərarlar qəbul edilməklə ölkəmizin iqtisadi gücü daha da artırılıb. 2018-ci ildə ölkəmizin maliyyə dayanıqlılığı, yaxın və uzaq gələcəyə hədəflənmiş düzgün iqtisadi inkişaf strategiyası sayəsində makroiqtisadi sabitlik təmin edilib və iqtisadiyyatımızın inkişaf dinamikasının qorunub saxlanılmasına nail olunub. Əldə olunan bu nailiyyətlər, cənab Prezident, Sizin rəhbərliyiniz ilə aparılmış genişmiqyaslı islahatların nəticəsində qazanılıb və ötən dövr ərzində beynəlxalq aləmdə ölkəmizin mövqeləri daha da güclənib.

2018-ci ildə ölkə iqtisadiyyatının inkişafında və büdcənin gəlirlər hissəsinin formalaşmasında xüsusi rola malik olan Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə vergitutma bazasını düzgün müəyyənləşdirməklə dövlət büdcəsinə 3 milyard 434 milyon manat gömrük ödənişinin köçürülməsini təmin edib. İlin əvvəlində nəzərdə tutulan proqnozla müqayisədə 1 milyard 4 milyon manat və ya 141 faiz çox gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülüb.

Qeyd etmək istəyirəm ki, hesabat dövründə ticarət dövriyyəsi 30 milyard 924 milyon ABŞ dolları təşkil edib. İxracın həcmi 19 milyard 460 milyon dollar, idxalın həcmi isə 11 milyard 465 milyon ABŞ dolları olub. 2017-ci illə müqayisədə 2 milyard 682 milyon ABŞ dolları məbləğində artan idxalın həcminin heç də hamısı vergitutma bazası deyil. Aparılan təhlillərin nəticəsi olaraq bildirmək istəyirəm ki, artan idxalın tərkibində strateji qızıl ehtiyatlarını artırmaq məqsədilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu və Mərkəzi Bankı tərəfindən imtiyazlı qaydada ölkə ərazisinə gətirilən, dövlət əhəmiyyətli 803.0 milyon dollar dəyərində qızıl külçələr, eyni zamanda, müxtəlif təsərrüfat subyektləri tərəfindən ölkəyə idxal olunan 300 milyon dollar məbləğində avadanlıq və mexaniki qurğular və digər imtiyazlı mallar təşkil edib. Bununla yanaşı, idxalın tərkibində vergitutma bazası olan 1 milyard 200 milyon dollar məbləğində artıma səbəb isə gömrük orqanları tərəfindən malların real qiymətləndirmə əsasında qanunvericiliyə uyğun qaydada düzgün dəyərləndirilməsi olub.

Cənab Prezident, gömrük orqanları qarşısında gömrük sistemində şəffaflığın təmin olunması, idxal-ixrac əməliyyatları üzrə statistik uçotun düzgün qurulması və xarici ticarət fəaliyyəti ilə məşğul olan şəxslərlə məmur təmasının minimuma endirilməsi, gömrük xidməti mədəniyyətinin yüksəldilməsi kimi mühüm tapşırıqlar qoymusunuz. Bildirmək istəyirəm ki, 2018-ci ildə ölkə ərazisinə gətirilən mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti daha da gücləndirilib, gömrük qaydalarının pozulmasına qarşı mübarizə tədbirləri genişləndirilib. Əməliyyat-axtarış fəaliyyəti istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 747 cinayət xarakterli və 9672 hüquqpozma faktı aşkarlanıb.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 264 fakt aşkar edilib və bu faktlar üzrə ümumilikdə 1 ton 193 kiloqram narkotik vasitə və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb. Bundan başqa, valyuta və valyuta sərvətləri, zinət əşyaları, dərman preparatları, mobil telefonlar, pnevmatik və soyuq silahlar və digər mallar tutulub. Cari ildə gömrük orqanları tərəfindən 308 nəfər cinayət məsuliyyətinə cəlb olunub və aşkar edilmiş 8925 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 332 hüquqi şəxs və 8608 fiziki şəxs barəsində inzibati qaydada tədbirlər görülüb.

Aparılan hesablamalara görə, gömrük nəzarətindən gizlədilərək gömrük sərhədindən keçirilməsinə cəhd edilmiş və nəticədə tərəfimizdən saxlanılmış qaçaqmalçılıq predmeti olan malların ümumi dəyəri 107 milyon manat olub, 416 milyon manatdan çox imtiyaz hüququ olmayan malların güzəştli qaydada gömrük rəsmiləşdirilməsindən keçirilməsi cəhdlərinin qarşısı alınıb. Bununla yanaşı, xidməti fəaliyyəti zamanı aşkar edilmiş korrupsiya faktları və bu faktların obyekti olan 117 nəfər gömrük əməkdaşı "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin və Əmək Məcəlləsinin müvafiq maddələrinə əsasən tutduğu vəzifədən azad edilib. Mövcud faktlara hüquqi qiymətin verilməsi üçün 17 gömrük əməkdaşı barəsində açılan cinayət işi üzrə istintaq materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib. Cari ildə də Baş Prokurorluq və digər hüquq-mühafizə orqanları ilə birlikdə korrupsiya hallarına qarşı mübarizə tədbirləri daha da gücləndiriləcək.

Cənab Prezident, Azərbaycan gömrük xidməti idarəetmə prinsipini tam kağızsız texnologiya əsasında qurmaqla elektron bəyanetmə sistemini 100 faizə çatdırıb və dünyanın qabaqcıl ölkələri sırasına daxil olub. 2018-ci ildə Komitəyə 11 növ elektron xidmət üzrə 3 milyon 777 min elektron müraciət daxil olub və gömrük xidməti göstərilib.

Diqqətinizə çatdırmaq istəyirəm ki, ötən dövr ərzində gömrük xidməti olaraq bizim üçün ən önəmlisi xarici ticarət fəaliyyəti zamanı şəffaflığın təmin edilməsi olub. Burada, ilk növbədə, ən vacib və problemli məsələ bir çox hallarda xarici ticarət fəaliyyət iştirakçıları tərəfindən ölkəyə gətirilən mal və nəqliyyat vasitələrinin düzgün və real dəyərlə bəyan olunmamasıdır. Lakin tərəfimizdən qanunun aliliyi əsas götürülərək beynəlxalq prinsiplərə əsaslanan mövcud qanunvericiliyin müddəaları, idxal mallarına münasibətdə qiymətləndirmə metodları düzgün tətbiq olunur və daxili bazarda rəqabətliliyin qorunması təmin edilir.

Fiskal funksiyalar həyata keçirən qurumların, o cümlədən gömrük xidmətinin fəaliyyəti ilə bağlı beynəlxalq təcrübə göstərir ki, vergiödəyiciləri arasında könüllü riayət psixologiyasının formalaşdırılması və onlara mütəmadi özünüqiymətləndirmə sisteminin tətbiqinin aşılanması faktiki olaraq büdcə gəlirləri ilə bağlı müəyyən edilmiş öhdəliklərin icrasında daha effektiv metod hesab olunur. Hazırda bu formatda yanaşma ilə bağlı yeni qanunvericilik aktı Zati-alilərinizin müvafiq Fərmanı ilə təsdiqlənib.

Möhtərəm cənab Prezident, Sizin "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli Fərmanınız ölkəmizdə sahibkarlığın inkişafına, xüsusən qeyri-neft məhsullarının, o cümlədən kənd təsərrüfatı və tez xarab olan digər məhsulların ixracına yeni təkan verib və biznes mühitinin daha da şəffaflaşmasında inqilabi dönüş olaraq hökumət-biznes münasibətlərində "Könüllü riayət mədəniyyətinin" əsasını qoyub.

Cənab Prezident, ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında müvafiq sərəncamlarınızın icrası ilə əlaqədar Dövlət Gömrük Komitəsi ilə Vergilər Nazirliyi qarşılıqlı əlaqələndirmə formatında idxal-ixrac əməliyyatlarına birgə nəzarət tədbirləri həyata keçirib, xarici ticarət fəaliyyət iştirakçılarının vergidən yayınma cəhdləri nəzarətə götürülüb, vahid risk platformasının tətbiqinə başlanılıb. Qeyd etmək istəyirəm ki, iki dövlət qurumu arasında idxal-ixrac mallarına münasibətdə risklərin idarə olunması prinsipinin ən yüksək səviyyədə tətbiqinə demək olar ki, nail olmuşuq. Qarşılıqlı nəzarət sisteminin tətbiqi dövlətin büdcəsindən vergi yayınmasının qarşısını almaqla yanaşı, sahibkarlıq subyektlərində yüksək vergi mədəniyyətinin və könüllü riayət sisteminin formalaşdırılması istiqamətində görüləcək ən mühüm tədbirlərdən olacaq.

Diqqətinizə çatdırmaq istəyirəm ki, ölkəmizin artan turizm potensialı fonunda 2018-ci ildə sərhədi keçən fiziki şəxslərin ümumi sayı 15 milyon 500 min nəfər olmaqla 2017-ci illə müqayisədə 2 milyon nəfər artıb və bu şəxslərə Dövlət Sərhəd Xidməti ilə birlikdə gücləndirilmiş iş rejimində xidmət göstərilib.

Cari ildə yeni innovasiya tipli layihələrin həyata keçirilməsi ilə vətəndaş məmnunluğunun təmin edilməsinə və ticarət dövriyyəsinin daha da artırılmasına nail olunacaq. Ümumi Tranzit Konvensiyasına əsaslanan tranzit sisteminin inkişaf etdirilməsi qarşıya qoyulmuş başlıca hədəflərdən biridir. Yeni kompüterləşdirilmiş tranzit sisteminin tətbiq olunmasının tezləşdirilməsi üçün milli qanunvericiliyin uyğunlaşdırılması, tranzit zəmanət sisteminin yaradılması istiqamətində müvafiq işlər görülməkdədir. Bu isə "Made in Azerbaijan" markalı malların Avropa bazarlarına sərbəst çıxışını təmin edəcək.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edim ki, Zati-alilərinizin ölkədə apardığı uğurlu iqtisadi siyasətin nəticəsi olaraq cari ildə də göstəriş və sərəncamlarınızın icrasını təmin etməklə Dövlət Gömrük Komitəsi xidməti fəaliyyətini müasir dünya standartlarına uyğun həyata keçirəcək, ölkəmizin iqtisadi təhlükəsizliyini qoruyaraq 1 milyard 272 milyon manat artımla proqnozlaşdırılan və qanunla təsdiq olunmuş 3 milyard 702 milyon manat büdcə öhdəliyini artıqlaması ilə yerinə yetirəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söylədi.*

## Prezident İlham Əliyevin yekun nitqi



– Mən əminəm ki, biz 2019-cu ildə də qarşımıza qoyduğumuz bütün vəzifələri icra edəcəyik. Bu il də ölkəmiz üçün uğurlu il olacaqdır. Mən giriş sözümdə qeyd etdim ki, keçən il dərin islahatlar ili olmuşdur. Bu islahatlar cəmi il ərzində özünü göstərdi, əlbəttə ki, gələcək illərdə özünü daha böyük həcmdə göstərəcək. Xüsusilə vergi və gömrük sahələrində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Bu sahələrdə sağlamlaşdırma prosesi gözəl nəticələr verir. Bizim maliyyə imkanlarımız genişlənir. Görülmüş işlər, yəni, artıq apardığımız islahatlar bu il də özünü böyük dərəcədə göstərəcək.

Burada qeyd olundu ki, gömrük sahəsində aparılan islahatlar nəticəsində biz büdcəmizi böyük dərəcədə artıra bilmişik. Hətta keçən il dürüstləşmə apararaq büdcəmizi artırmışıq ki, əlavə işləri görə bilək. Həm sosial sahəyə, həm də infrastruktur layihələrinin icrası ilə bağlı əlavə vəsait ayrıldı. Bütün bunlar nəyə görə mümkün olmuşdur? Ona görə ki, həm vergi, həm də gömrük sahələrində artıq yeni yanaşma mövcuddur. Yeni icraçılar vəzifəyə gətirildi, rəhbərlikdə dəyişikliklər edildi və hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyan bu qurumlar indi çox yaxşı işləyir, şəffaflıq, dürüstlük təmin edilir. Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır və aparılacaqdır. Bu işlərdə əli olan adamlar məsuliyyətə cəlb olunur, vəzifədən kənarlaşdırılır. Yəni, tam sağlamlaşdırma prosesi gedir və artıq keçən ilin timsalında biz gözəl nəticələri görə bilmişik.

Vergi sahəsində də çox dərin islahatlar aparılıb. Hesab edirəm ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Çünki əvvəlki rəhbərlik tərəfindən buraxılmış kobud səhvlər ona gətirib çıxarmışdı ki, gələn illərin vergiləri yığılırdı, beləliklə, bir piramida yaradılırdı, sahibkarlar incidilirdi, onlara qarşı əsassız tələblər irəli sürülürdü. Vergi sahəsində özbaşınalıq hökm sürürdü, bir çox xoşagəlməz əməllər müşahidə olunurdu. Bütün bunlara son qoyulmalı idi və son qoyuldu. Keçən ilin təcrübəsi onu göstərir ki, həm vergi, həm gömrük sahəsində yeni rəhbərlik mənim göstərişlərimi yaxşı yerinə yetirir. Biz bu sahələrdə aparılan islahatların nəticələrini bundan sonrakı illərdə də görəcəyik. Bu sahələrdə tam şəffaflıq və dürüstlük olmalıdır. Bu sahələrdə işləyən insanlara da xəbərdarlıq edildi ki, əvvəlki qayda ilə işləmək mümkün olmayacaq və onlar özləri də bu nəticəni çıxarsınlar. Kim ki nəticə çıxarmır, onlara qarşı tədbirlər görülür, o cümlədən bir çox adamlar cinayət məsuliyyətinə də cəlb olunurlar.

Mən tam əminəm ki, aparılan islahatlar nəticəsində həm bizim gəlirlərimiz artacaq, - artıq artıb, gömrük 1 milyard manat əlavə vəsait toplayıb, - eyni zamanda, biz kölgə iqtisadiyyatına böyük zərbə vurmuş olarıq. Bu, böyük bəladır və biz bu bəla ilə bağlı çox ciddi mübarizə aparırıq. Azərbaycanda kölgə iqtisadiyyatı olmamalıdır. Düzdür, elə bir ölkə yoxdur ki, orada kölgə iqtisadiyyatı olmasın. Biz kölgə iqtisadiyyatına qarşı həm inzibati, həm də institusional yollarla, o cümlədən islahat yolu ilə mübarizə aparırıq və aparacağıq. Vergi sahəsində aparılan islahatlar qanunsuz məşğulluğa son qoymalıdır. Hesab edirəm ki, icbari tibbi sığortanın tam işə düşməsi nəticəsində qanunsuz məşğulluq bir amil kimi, ümumiyyətlə, aradan qaldırılacaq. Kölgə iqtisadiyyatına qarşı mübarizə metodları kifayət qədər çoxşaxəlidir. Biz onların hamısından istifadə edirik və edəcəyik. Hər kəs başa düşməlidir ki, Azərbaycanda bütün işlər qanun çərçivəsində aparılmalıdır. Heç bir qanunsuzluğa yol verilməyəcək və hər kəs nəticə çıxarsın. Ona görə bu il də islahatların dərinləşməsi istiqamətində çox ciddi addımlar atılacaq. Bu, təkcə vergi və gömrük sahələrinə aid deyil. Eyni zamanda, sosial sahədə çox ciddi islahatlar aparılır. Bu gün onların bir hissəsi səsləndirildi. Bu sahədə də vaxtilə çox böyük pozuntular, ədalətsizliklər olub. Bütün bunlar indi aradan qaldırılır və bu sistem də vətəndaşlara tam ədalətli xidmət edəcək.

Bu il infrastrukturla bağlı bir çox önəmli layihələr icra ediləcək. Biz son illər ərzində infrastrukturun yaradılması ilə çox ciddi məşğul olmuşuq. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə qabaqcıl yerlərdədir, 30-cu yerdədir. Ancaq hələ ki, görüləsi işlər var və bu istiqamətdə işlər aparılacaq. Bu il "Şimal-2" yeni böyük elektrik stansiyasının istifadəyə verilməsi gözlənilir. Bu stansiya 400 meqavat enerji istehsal edəcək. İndi biz özümüzü elektrik enerjisi ilə tam təmin edirik, hətta böyük həcmdə ixrac da edirik. Ancaq biz yeni güclər yaratmalıyıq. Çünki tələbat artır, sənaye artır, əhali artır və ixrac imkanlarımız genişlənir. Ona görə 400 meqavat gücündə "Şimal-2" elektrik stansiyasının işə salınması mühüm hadisə olacaqdır. Bununla bərabər, keçən ilin ikinci yarısından başlayaraq - o qəza baş verəndən sonra bizim enerji sistemimiz çox ciddi təftiş olunur. Bu sahədə də çox böyük pozuntular aşkarlanıb. Məhz bu pozuntular nəticəsində biz yay mövsümündə gözlənilməz bir qəza ilə üzləşmişdik. Ona görə bütün çatışmazlıqlar operativ qaydada aradan qaldırılır və eyni zamanda, mövcud enerji bloklarımızın reabilitasiyası, yenidən qurulması prosesinə start verilib. Bu məqsədlər üçün keçən il vəsait ayrılıb. Ancaq mövcud enerji qurğularımızı təmir edərək, onlara düzgün xidmət göstərərək biz yeni stansiyalar tikmədən enerji istehsalını ən azı 500 meqavat artıra bilərik. Bu, çox böyük rəqəmdir. Gücü 400 meqavat olan "Şimal-2" stansiyasının işə salınması ilə biz bu il 1000 meqavata yaxın yeni generasiya gücünə malik ola bilərik. Bu, əlbəttə ki, ixrac imkanlarımızı böyük dərəcədə artıracaq. Çünki keçən il biz elektrik enerjisinin ixracından 10 milyonlarla dollar pul əldə etmişik, bu vəsait xəzinəyə daxil olubdur.

Keçənilki qəzadan sonra aydın oldu ki, bizim strateji obyektlərimiz bu fövqəladə vəziyyətə hazır deyil və bu, böyük təəssüf hissi yaradır. Əlbəttə ki, bu strateji obyektlərə rəhbərlik edən şəxslər də tənbeh olundu. İndi isə görülən və görüləcək işlər nəticəsində bütün strateji obyektlərdə müasir generator sistemi quraşdırılacaq, bu məqsədlər üçün vəsait ayrıldı. İlk növbədə, metro stansiyalarında generatorlar quraşdırılacaq. Artıq kontraktlar da imzalandı və bu il biz bunu tam şəkildə təmin edəcəyik. Bu, bizə imkan verəcək ki, əgər hər hansı bir qəza olarsa, metro tunelində heç bir qatar qalmasın. Yəni, bu generatorlar imkan verəcək ki, qatarlar stansiyaya qədər gəlsin və vətəndaşlar stansiyaya həm rahat düşə bilsinlər, həm də eskalatorlarla qalxa bilsinlər. Metroda quraşdırılan generatorların əsas funksiyası bundan ibarətdir. Bizim bütün strateji səhiyyə obyektlərində də təftiş aparıldı və bütün obyektlərdə bu sahədə tam təminat təşkil ediləcəkdir.

Söz verdiyimiz kimi, keçən il Azərbaycanda qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb və hesab edirəm ki, bu, ən yüksək göstəricidir. Dünyada nadir ölkələr tapılar ki, bu dərəcədə qazlaşdırma aparılsın. Hesab edirəm ki, bu proses bu il də davam etdirilməlidir. Hələ ki, bir çox kəndlərdə qaz yoxdur və o kəndlərin qazlaşdırılması gündəlikdə duran məsələdir.

İçməli su ilə bağlı aparılan işlər nəticəsində 38 şəhərin su məsələsi tam şəkildə öz həllini tapıb. Hazırda 12 şəhərdə işlər gedir və yaxın gələcəkdə o şəhərlərin də içməli su ilə tam təminatı təşkil ediləcəkdir. Bu il beş şəhərdə işlər başa çatacaq. Bu sahədə görülən işlər daim diqqət mərkəzindədir. İçməli su layihələrinin icrası insanların sağlamlığına verilən böyük töhfədir.

Keçən il 2 min kilometr avtomobil yolu salınmışdır. Bu, rekord göstəricidir. Ümumilikdə isə 2004-cü ildən bu günə qədər 15 min kilometr avtomobil yolu salınıb. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarında yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Biz inkişaf etmiş bir çox ölkələri də qabaqlayırıq və bu proses davam etdiriləcək. Keçən il 920 kəndin yol infrastrukturu yaxşılaşıb, yeni yollar salınıb. Bu yaşayış məntəqələrində 2,2 milyon insan yaşayır. Yəni, 2,2 milyon insanın yol problemi həll olunub. Bildiyiniz kimi, bu, eyni zamanda, iqtisadi amildir. Çünki yol olan yerdə kənd təsərrüfatının inkişafı da sürətlənir, yol olan yerdə sosial məsələlər də öz həllini tapır, o cümlədən xəstəxanalara insanlar daha da tez çata bilirlər. Yəni, bunun çox böyük əhəmiyyəti var. Bu il investisiya proqramında yol tikintisi üçün kifayət qədər vəsait nəzərdə tutulub. Bu il ən azı, hələlik ən azı 1000 kilometr yeni yol salınacaqdır. Onların arasında əlbəttə ki, yüzlərlə kənd yolları var, eyni zamanda, magistral yolların tikintisinin davam etdirilməsi layihələri var, o cümlədən Astara-İran sərhədi yolu. Çünki biz Bakıdan Astaraya qədər yeni yol salmışıq. Çox gözəl yoldur və məsafəni də təqribən 40 kilometr qısaldır. Eyni zamanda, bu magistral yol şəhərlərə girmədən gedir və hər bir şəhərə ayrıca giriş nəzərdə tutulubdur. Ancaq Astara şəhərindən İran sərhədinə qədər yol yoxdur, yol şəhərin içindən keçir. Ona görə biz bu layihəni də icra edəcəyik. Plana görə, bu ilin sonunadək Astaradan İran sərhədinə qədər yeni dördzolaqlı yol çəkiləcək və beləliklə, yük maşınları Astara şəhərinə girmədən, vətəndaşları narahat etmədən sərhədə qədər gedə biləcək.

Biz bu il yeni Sumqayıt-Rusiya sərhədi yolunun tikintisi üçün də böyük vəsait nəzərdə tutmuşuq. Bu, sahil boyu ilə Rusiya sərhədinə gedən tamamilə yeni bir yoldur. Beləliklə, həm Rusiya sərhədinə gedən ikinci yolumuz olacaq, eyni zamanda, çox keyfiyyətli yol olacaq. Bununla yanaşı, bu günə qədər boş qalan torpaqlarda canlanma olacaqdır. Çünki bu ərazilər istifadəsiz qalmışdı. İndi o ərazilərdə kənd təsərrüfatının inkişafı üçün müxtəlif layihələr icra edilir. O cümlədən Taxtakörpü su anbarı və Ceyranbatana qədər gələn kanal da əlbəttə ki, o torpaqlara suyun verilməsini təmin edir. Sumqayıt-Rusiya sərhədi yolunun böyük hissəsi bu il icra edilməlidir. Natamam qalmış Bakı-Gürcüstan sərhədi yolu. Gəncə şəhərinə qədər dördzolaqlı yol salınıb və Gəncədən Gürcüstan sərhədinə qədər ikizolaqlı yolu biz dörd zolağa genişləndirməliyik. Bu məqsədlər üçün də vəsait nəzərdə tutulub. Şəhərlərarası, şəhərlərdaxili və kənd yolları tikiləcək.

Keçən il biz meliorativ tədbirlər görməklə 100 min hektar torpağa su verilməsini təmin etdik. Onlardan 60 min hektara su verilirdi, ancaq çox zəif verilirdi. Yəni, keçən il o torpaqlara suyun verilməsi yaxşılaşdırıldı, 40 min hektara isə heç vaxt su verilmirdi, bu da əkin dövriyyəsinə cəlb edilmiş suvarılan yeni torpaqlar olacaqdır. Yəni, həm 2017-ci ildə 100 min hektara, həm də keçən il 100 min hektara suyun verilməsi kənd təsərrüfatına çox böyük dəstəkdir. Bu il artıq verilən təkliflərə görə ən azı 80 min hektara suyun verilməsi nəzərdə tutulur. Bundan əlavə, 300 subartezian quyusu qazılacaq. Biz onu hər il edirik, keçən il də, əvvəlki illərdə də. Üç yüz subartezian quyusunun qazılması kəndlərdə həm içməli suya olan tələbatı ödəyir, həm də ki, kənd təsərrüfatına xidmət göstərir.

Bu il sosial infrastrukturla bağlı işlər görüləcək. Mən giriş sözümdə qeyd etdiyim kimi, məcburi köçkünlərin məişət problemlərinin həlli təmin ediləcəkdir. Bu il 5800 ailəyə yeni mənzillər verildi. Onu da qeyd etməliyəm ki, bu mənzillərdən 1000-i "Qobu Park" yaşayış kompleksində özəl şirkət tərəfindən inşa edilmiş və köçkünlərə təmənnasız verilmişdir. Bu, çox müsbət təşəbbüsdür, mən bunu çox alqışlayıram. Bizim böyük biznes qurumlarımız sosial sahələrdə də fəal olmalıdırlar. Elə birinci təcrübə çox təqdirəlayiqdir. Bildiyimə görə, bu proses bu il də davam etdiriləcək. İlkin hesablamalara görə, bu il təqribən 5000 köçkün ailəsi üçün yeni mənzillər tikilib istifadəyə veriləcək. Hələlik biz bu rəqəm üzərində dayanırıq, amma il ərzində baxarıq, əgər imkan olarsa, bunu daha da artıra bilərik. Nə qədər çox etsək, bir o qədər də yaxşıdır. Ancaq hamımız bilməliyik ki, bu, böyük vəsait tələb edən layihələrdir və biz bu məsələləri imkan daxilində həll edirik. Bu günə qədər 300 min məcburi köçkün yeni evlərlə təmin edilibdir.

**(davamı 4-cü səhifədə)**

## “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 6, maddə 477; 2008, N 10, maddə 886; 2009, N 12, maddə 966; 2010, N 10, maddə 837; 2011, N 3, maddə 162; 2013, N 5, maddə 475; 2014, N 11, maddə 1347; 2015, N 5, maddə 495) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.0.1-ci, 1.0.4-cü, 6.1-ci, 7.3-cü, 8.2-ci, 8.8-ci, 10.3-cü maddələrinə “daimi yaşayan” sözlərindən sonra “və ya qaçqın statusu almış” sözləri əlavə edilsin.

**2.** 3-cü maddəyə “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında”,” sözlərindən sonra “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”,” sözləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 5.0.3-1-ci və 5.0.3-2-ci maddələr əlavə edilsin:

“5.0.3-1. Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər barədə məlumatlar;

5.0.3-2. Azərbaycan Respublikasında qaçqın statusu almış vətəndaşlığı olmayan şəxslər barədə məlumatlar;”.

**4.** 7.5.1-1-ci maddədə “daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə” sözləri “daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvafiq olaraq” sözləri ilə əvəz edilsin və həmin maddəyə “icazə” sözündən sonra “və ya qaçqın” sözləri əlavə edilsin.

**5.** 8.6-cı maddəyə “çıxarıldıqda” sözündən sonra “, yaxud Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qaçqın statusunu itirdikdə (Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etdiyi hal istisna olmaqla) və ya ondan məhrum edildikdə onlara verilmiş” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 39-VQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 yanvar tarixli 727 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 39-VQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 yanvar tarixli 727 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 1, maddə 49, N 8, maddə 1379) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bənddən “, 5.3-cü, 6.1.2-ci, 6.1.3-cü” sözləri çıxarılsın.

**2.** Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. həmin Nizamnamənin 16 saylı əlavəsinin 5.3-cü və 6.1.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirir;”.

**3.** 2.4-cü bənddə “, 3.1-ci, 3.2-ci (hər iki halda), 4.3-cü, 6.1-ci və 6.2-ci” sözləri “və 3.2-ci (ikinci halda)” sözləri ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

“2.4-1. həmin Nizamnamənin 16 saylı əlavəsinin 3.1-ci, 3.2-ci (birinci halda), 4.3-cü, 6.1-ci və 6.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri həyata keçirirlər;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 11 yanvar 2019-cu il.**

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**(əvvəli 3-cü səhifədə)**

Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə evlərin verilməsi prosesi davam etdiriləcək. Əgər keçən il 626 mənzil verilibsə, bu il ən azı 800 mənzil veriləcək. Hesab edirəm ki, bu, çox düzgün addımdır. Çünki bu ailələr buna layiqdirlər. Biz həmişə onların problemlərini diqqət mərkəzində saxlayırıq. Altı mindən çox ailə artıq dövlət tərəfindən evlərlə təmin edilib. Mən bilmirəm və eşitməmişəm ki, hansısa başqa ölkədə belə təcrübə var. Ancaq bizim üçün əsas o deyil, əsas odur və biz hesab edirik ki, bu, düzgündür. Bu vətəndaşlara mənzil hədiyyə etmək hesab edirəm ki, bizim borcumuzdur. Biz bunu edirik və edəcəyik. Bu proses davam edəcək. Bütün şəhid ailələrinin nümayəndələri evlərlə təmin olunacaqlar.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar,- mənim Sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Artıq vəsaitin verilməsi prosesi başlanmışdır. Bu günə qədər siyahıda 10 minə yaxın vərəsə var. Onların hamısına 11 min manat veriləcəkdir. Eyni zamanda, siyahılara baxılır, dəqiqləşdirilir və bu məsələ ilə bağlı təkliflər də irəli sürülür. Mən artıq bu barədə sözümü demişəm. Burada əlbəttə ki, sosial ədalət prinsipi əsas olmalıdır. Qanun və ədalət. Əminəm ki, biz bu istiqamətdə də istədiyimizə nail olacağıq. Yəni, bu təşəbbüs, bu addım bir məqsədi güdürdü ki, vaxtilə o vəsaiti almayan ailələr o vəsaiti alsınlar. Bunu da biz təmin edirik. Yenə də demək istəyirəm ki, siyahılar dəqiqləşdirilir və bu məsələ ilə bağlı bundan sonra da açıqlamalar veriləcəkdir.

Keçən il 140-dan çox məktəb tikilib. Bu il 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur. Qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsi hesab edirəm ki, maksimum iki il çəkə bilər. Bu il və gələn il biz bu proqramı başa çatdırmalıyıq.

Bu il mərkəzi rayon xəstəxanalarının tikintisi davam etdiriləcək. Bu il 10-a yaxın mərkəzi rayon xəstəxanasının açılışı gözlənilir. Keçən il də bir çox yerlərdə xəstəxanalar açılmışdır. Bu il üç Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. Beş “ASAN xidmət” mərkəzi açılmalıdır.

Onu da bildirməliyəm ki, keçən il 5 milyondan çox insan pulsuz olaraq tibbi müayinədən keçmişdir.

Özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il ən azı yeddi min ailə bu proqramdan faydalanacaq. Bu gün onların arasında əlbəttə ki, ünvanlı sosial yardım alanlar da var. Beləliklə, o kateqoriyadan olan insanlar dövlətin dəstəyi ilə artıq özləri pul qazanacaqlar, öz ailə büdcələrini quracaqlar. Özünüməşğulluq proqramının çox böyük sosial və iqtisadi faydası var.

Mən giriş sözümdə qeyd etdim ki, biz hərbi potensialımızın möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görmüşük. Bu il də istisna olmayacaq. Artıq yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ölkəmizə müasir silahlar, texnikalar gətirilir. Yəni, bu məqsədlər üçün biz nə qədər lazımdırsa, o qədər də vəsait ayıracağıq. Bununla paralel olaraq, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması, məişət problemlərinin həlli istiqamətində işlər gedir. Keçən il 400-ə yaxın hərbçiyə mənzil verilmişdir. Artıq hərbi xidməti uğurla, qüsursuz başa vuran hərbçilərə bu il də mənzillərin verilməsi nəzərdə tutulur. Hərbçilərin məişət problemlərinin həlli də təmin edilir. Bizim hərbi hissələrimizin mütləq əksəriyyəti indi tam təmirlidir. Təmirsiz olan hissələrdə də təmir işləri nəzərdə tutulur.

Bu il sahibkarlığın inkişafı ilə bağlı əlavə addımlar atılacaq. Bildirməliyəm ki, əvvəlki illərdə sahibkarlara 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilmişdir, keçən il isə 160 milyon manat. Sevindirici haldır ki, verilən kreditlər əvvəlcə verilmiş və sonra qaytarılan kreditlər hesabına verilir. Yəni, büdcə bu məsələyə pul xərcləmir. Artıq bu vəsait akkumulyasiya olunub. Biz sahibkarlara hər il bu cür dəstək göstəririk və göstərəcəyik. Sahibkarlara daha böyük kömək göstərmək üçün indi bir çox ölkələrə ixrac missiyaları təşkil olunur. Biz kömək edirik, bu işlərə büdcədən vəsait ayırırıq. Biz sərgilərdə, xüsusilə ərzaq məhsullarının təbliği ilə bağlı sərgilərdə dövlət hesabına iştirak edirik. Sahibkarları oraya cəlb edirik ki, onlar öz məhsullarını xaricə daha rahat sata bilsinlər. Ticarət evləri yaradılır. Artıq Belarusda, Çində, Ukraynada, Latviyada, Polşada Azərbaycan Ticarət evləri açılıb. Bu da bizim təşəbbüsümüzdür. Onu da bildirməliyəm ki, bizim Ticarət evlərimizə çox böyük maraq var. Bu Ticarət evlərinin açılması nəticəsində həmin ölkələrə bizim ixracımız da artır. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Sənaye potensialımızın inkişafı ilə bağlı keçən ilin göstəriciləri çox müsbətdir. Sənayenin qeyri-neft sektorunda istehsal 9,1 faiz artıb. Bütün bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Sənaye zonalarının, sənaye məhəllələrinin, sənaye parklarının yaradılması geniş vüsət alıb. Nəinki Sumqayıtda, indi Gəncədə, Mingəçevirdə və digər şəhərlərdə də bu proses gedir. Bu günə qədər bizim sənaye parklarımızda 67 rezident var. Onlardan 40 rezident artıq fəaliyyətdədir. Sənaye parklarında həyata keçirilən layihələrə nəzərdə tutulan sərmayə 5 milyard manatdan çoxdur. Bu layihələr nəticəsində 11 min yeni iş yeri yaradılıb. Bu proses davam etdiriləcək. Bu il də sənaye zonalarının yaradılması nəzərdə tutulur.

İnvestisiya təşviqi mexanizminin işə düşməsi də çox ciddi islahat idi. Bu proqram 333 layihəni əhatə edir. Onlardan 107-si 2018-ci ildə icra edilib. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. Bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılıb. İndi baxın, əgər biz bu mexanizmə keçməsəydik, bunu tətbiq etməsəydik, ölkə iqtisadiyyatına 2,8 milyard manat qoyulmayacaqdı.

Bu, islahatların nə qədər vacib olduğunu bir daha göstərir. Bəzi hallarda artıq o sözə sadəcə öyrəşirlər. Amma islahat çox böyük məna daşıyır. İslahat nəticəsində dünya inkişaf edir, ölkələr inkişaf edir, yeni imkanlar yaranır. Ona görə islahat məqsədyönlü olmalıdır. Biz elə islahatlar aparırıq ki, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna, vətəndaşların rifahına, onların rahat yaşamasına xidmət edir, o cümlədən bax, bu sahibkarlıqla bağlı aparılan islahatlar. Görün, nəticələr nə qədər təsirlidir.

Biz bir neçə il bundan əvvəl ənənəvi sahəmiz olan xalçaçılığı sürətlə inkişaf etdirməyə başlamışıq və nəticələr də var. İyirmi xalça fabriki tikilərək istifadəyə verilib. Bu il 11 xalça fabrikinin istifadəyə verilməsi nəzərdə tutulur. Bu fabriklər tam gücü ilə fəaliyyətə başlayandan sonra 5 minə yaxın insan, - onların mütləq əksəriyyəti qadınlardır, - işləyəcək. Həm iş yerləri, gözəl müəssisələr yaradılır, bizim tarixi milli sənətimiz yaşayır və yaşayacaqdır, gənclər cəlb olunur, həm də ki, xalçaçılığın böyük iqtisadi tərəfi də var. Bu, ixracyönümlü məhsuldur.

Qeyd etdiyim kimi, kənd təsərrüfatı sahəsində 4,6 faiz artım yaxşı göstəricidir. Ancaq bu sahədə də çox ciddi islahatlar aparılır. Kənd Təsərrüfatı Nazirliyinin yeni rəhbərliyi bir çox önəmli təşəbbüslər irəli sürüb. Mən onları bəyənmişəm, dəstəkləmişəm. İndi onların icrası başlanılır. Mən əminəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatı istehsalı böyük dərəcədə artacaq, o cümlədən ixrac artacaq, daxili tələbat daha çox yerli məhsullar hesabına təmin ediləcəkdir. Özümüzü təminetmə əmsalı artacaq, qeyd etdiyim kimi, ixrac imkanlarımız genişləndiriləcək, biz yeni bazarlara çıxış əldə edəcəyik.

Elektron kənd təsərrüfatı sisteminin tam işə düşməsi gündəlikdə duran vacib məsələlərdən biridir. Subsidiyalarla bağlı təkliflər imkan verəcək ki, bu sahədə də müsbətə doğru çox ciddi dönüş yaransın. Çünki subsidiyaların verilməsində də böyük pozuntular olmuşdur. Bəzi hallarda subsidiyalar ünvana çatmırdı, bəzi hallarda çox kortəbii şəkildə verilirdi. Dövlət tərəfindən güzəştli şərtlərlə alınması nəzərdə tutulan gübrələr də bir çox hallarda keyfiyyətsiz idi. İndi gübrə təminatında dövlət 70 faiz yükü öz üzərinə götürür. Amma bəzi hallarda keyfiyyətsiz, müddəti keçmiş gübrələr gətirilirdi və o, kənd təsərrüfatına xeyirdən çox ziyan verirdi. Digər pozuntular da olub. Ona görə bütün pozuntular aradan qaldırılmalıdır. Kənddə işləyən vətəndaş daim hiss etməlidir ki, dövlət hər zaman onun yanındadır.

Biz kənd təsərrüfatını stimullaşdırmaq üçün çox böyük işlər görmüşük. Texnikanın alınması. Təkcə keçən il 5800 texnika alınıb. Əvvəlki illərdə bəzən 9 min, 8 min texnika alınıb. Biz texnika parkımızı böyük dərəcədə təzələmişik. Ən qabaqcıl şirkətlərin texnikası alınır, istər taxılçılıqda, istər pambıqçılıqda və digər sahələrdə. Ona görə biz bu sahədə işlərimizi davam etdirəcəyik. Biz kəndliləri torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad etmişik. Mən bilmirəm bu qədər dəstək göstərən ikinci belə ölkə varmı? Gübrə 70 faiz, yanacaq 50 faiz dövlətin hesabına, texnika dövlət tərəfindən alınaraq güzəştli şərtlərlə verilir, subsidiyalar, infrastruktur layihələri. İndi 100 min hektar torpağın dövriyyəyə cəlb olunması, suvarma suyu ilə təmin edilməsi, yolların çəkilməsi - bütün bunlar güzəştli kreditlər hesabınadır. Sahibkarlığın inkişafına yönələn kreditlərin əksəriyyəti kənd təsərrüfatına gedir. Amma biz daha böyük nəticələr gözləyirik. Yəni, verilən dövlət dəstəyi real nəticələrdə öz əksini tapmır. O dəstək müqabilində daha da böyük istehsal, daha da inkişaf etmiş kənd təsərrüfatı olmalı idi.

Bilirsiniz, mən əldə edilmiş uğurlar haqqında həmişə danışmağa hazıram və fəxr ediləsi məsələlər kifayət qədər çoxdur. Ancaq mən həmişə, necə deyərlər, narazı oluram. Çünki mən istəyirəm ki, daha yaxşı olsun. İstəyirəm ki, bu pozuntular olmasın. Harada ki mümkündür, biz maksimum dərəcədə öz imkanlarımızdan istifadə edək ki, işlər daha da yaxşı getsin. Ona görə kadr islahatı da bu məqsədi daşıyır. İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib. İndi dünyada əks proses gedir - idarəetmə daha yığcam, çevik, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər.

Kənd təsərrüfatı çox ciddi, çox böyük sahədir. Əhalinin demək olar ki, yarısı kəndlərdə yaşayır. Ona görə bu sahə daim diqqət mərkəzindədir. İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr var. Proqrama görə, bizdə, ümumiyyətlə 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır. Ümumiyyətlə isə bütün aqroparkların əhatə etdiyi sahə təqribən 200 min hektara yaxın olacaqdır. İndi 31 aqroparkın yaradılmasına 2,2 milyard manat vəsait nəzərdə tutulur. Onların istehsal edəcəyi məhsullar, indi təxmini hesablamalar göstərir ki, təqribən 800 milyon-1 milyard manata yaxın olacaqdır.

Turizm sahəsində gözəl nəticələr var. Qeyd etdiyim kimi, keçən il də 6 faiz artım olub və ölkəmizə 2 milyon 850 min xarici qonaq gəlib. Bizdə turizm sənayesi yaradılmalıdır. Azərbaycanda olan bütün amillər turizmin sürətli inkişafını şərtləndirir. Təhlükəsizlik, qonaqpərvərlik, tarixi abidələrimiz, gözəl iqlimimiz, 9 iqlim tipi, dəniz turizmi, dağ-xizək turizmi, müalicəvi turizm bizdə çox sürətlə inkişaf edə bilər. Gözəl mətbəx, müasir infrastruktur, otellər, yollar, nəqliyyat infrastrukturu, 6 beynəlxalq aeroport. Bütün bu amillər turizmin sürətli inkişafını təmin etməlidir. Bu sahədə də islahatlar aparılıb, o cümlədən struktur islahatları, Turizm Agentliyi yaradılıbdır. Görülmüş işlərlə bağlı mənə bu yaxınlarda məruzə edildi. Mən görüləcək işlərlə bağlı öz tövsiyələrimi verdim ki, biz ümumilikdə turizm sənayesini necə yaradacağıq və müxtəlif fərdi layihələr icra edilməlidir və edilir.

Bizim tarixi yerlərimizin yenidən qurulması, bərpası istiqamətində çox böyük işlər görülür. Deyə bilərəm ki, bu il böyük turist kütləsini cəlb edən Yanardağ qoruğu yenidən fəaliyyətə başlayacaq. Çünki mən keçən il orada olarkən acınacaqlı mənzərədən dəhşətə gəldim. Mən Yanardağda sovet vaxtında olmuşam. O vaxtdan bu günə qədər heç nə dəyişilməyib - həmin o dağılmış binalar, eybəcər budkalar. Adam baxanda dəhşətə gəlir, bura Bakıdır, Azərbaycandır, yoxsa, haradır? Sözün düzü, mənim oraya yolum düşmürdü. Əlbəttə, mən orada olarkən dərhal göstəriş verdim ki, o tarixi yer yenidən qurulsun və bu il biz artıq buna nail olacağıq. Həm Azərbaycan vətəndaşları, həm də turistlər orada tam yeni bir mənzərə ilə üzləşəcəklər. Orada yeni istirahət zonaları, ictimai zonalar, kafe yaradılacaq. Yəni, bu yer bizim inkişafımıza uyğun şəkildə yenidən qurulacaq.

Bizim tarixi kəndlərimiz var. Onlardan biri Lahıc kəndidir. Bildiyiniz kimi, Şamaxıdan Lahıca daha rahat, daha təhlükəsiz, Bakıdan gələndə daha qısa yeni yol çəkildi, qaz çəkildi, yeni məktəb tikildi. Yəni, bu, bizim çox qiymətli, tarixi yerimizdir və əlbəttə ki, həm turistləri cəlb edir, həm də Lahıcda olan özünəməxsus ab-hava Azərbaycan dövlətinin nə qədər qədim və zəngin dövlət olduğunu göstərir.

Mənim Sərəncamımla tarixi Basqal kəndini abadlaşdırmaq və turistləri cəlb etmək üçün çox böyük layihələrin icra olunması məqsədilə xüsusi proqram hazırlanır. Çünki Basqal da qədim tarixi kənddir, qədim yaşayış yeridir, yaşayış məskənidir. Həm Basqalda yaşayan vətəndaşlar üçün, həm də turistləri oraya cəlb etmək üçün çox gözəl şərait yaradılacaq. Digər tarixi şəhərlərlə bağlı göstərişlər verilib ki, bu şəhərlərin, xüsusilə turistləri daha çox cəlb edən şəhərlərin məsələləri öz həllini tapsın. Qusar rayonunda yerləşən “Şahdağ” xizək kurortunda yeni xizək zolaqları yaradılır, ümumiyyətlə, yeni yanaşma tətbiq olunur və əminəm ki, bu gözəl kurort turistləri daha çox cəlb edəcək.

Biz keçən il nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə etmişik. Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün bir çox ikitərəfli təmaslar olub, razılaşmalar əldə edilib. Mənim keçən il Türkmənistana dövlət səfərim çərçivəsində 21 sənəd imzalanmışdır. Onlardan 9-u məhz nəqliyyat sektoruna aiddir. Türkmənistanla əldə edilmiş razılaşma imkan verəcək ki, digər Orta Asiya ölkələri, Əfqanıstan öz yüklərini Türkmənistandan keçməklə Azərbaycan ərazisindən Şərq-Qərb dəhlizi ilə dünya bazarlarına çıxara bilsinlər. Ələt Dəniz Ticarət Limanında xüsusi şərait yaradırıq. Müvafiq orqanlar həm tarif siyasətini, həm də tranzit imkanlarını dövlətlərarası səviyyədə tənzimləyiblər. Yəni, bu, bizim üçün yeni böyük nəqliyyat imkanları yaradır. Onu da bildirməliyəm ki, nəinki Orta Asiya ölkələri ilə, eyni zamanda, Əfqanıstanla danışıqlar aparılıb və aparılacaq. Biz Əfqanıstanın “Lapis-Lazuli” layihəsini Bakı-Tbilisi-Qars layihəsi ilə birləşdiririk. Artıq Əfqanıstandan da birinci yüklər Türkmənistan ərazisindən Azərbaycana, ondan sonra da Qərb istiqamətinə getməyə başlamışdır. Ona görə bizim hədəfimiz odur ki, Orta Asiyanın yüklərinin böyük hissəsini biz bu istiqamətə cəlb edək. Artıq bu proses başlanmışdır. Təbii ki, Türkmənistan bu imkanlardan istifadə edir, Tacikistan yükləri bu marşrutla gəlir, Əfqanıstan bu yolla yükləri göndərməyə başlayıb. Biz yaxın gələcəkdə Özbəkistanla da danışıqlar aparacağıq. Təbii ki, Qazaxıstanla bizim bu sahədə ənənəvi əməkdaşlığımız var və Qırğızıstan tərəfinə də biz öz təkliflərimizi göndərmişik. Ona görə çox böyük bir inkişaf olacaqdır. Biz isə keçən il Ələt Dəniz Ticarət Limanını işə saldıq, dəmir yolu da hazırdır, ona görə bütün infrastruktur var.

Keçən il Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Biz Azərbaycanın daxilində dəmir yolunun yenidən qurulması prosesinə başlamışıq. Bu il Bakı-Yalama dəmir yolunun yenidən qurulması davam etdiriləcək. Bakı-Astara dəmir yolunun yenidən qurulması üçün bu ilin investisiya proqramında da vəsait nəzərdə tutulub. Bunlar Şimal-Cənub dəhlizi üçün çox önəmli layihələrdir. Düzdür, bu dəmir yolu var, ancaq sürət aşağıdır. Biz keçən ilin sonunda Bakı-Gəncə sürət qatarını istifadəyə verdik, indi vaxt nə qədər qısalıbdır. Sürət qatarları həm sərnişinlər, həm də yüklər üçün daha yaxşıdır. Bakı-Yalama yolunun yenidən qurulması prosesi başlayandan sonra və buna paralel olaraq biz “Şahdağ” kurortuna da dəmir yolunun çəkilişini təmin edəcəyik. Biz indi Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlamışıq. Bu da həm Tufandağa, həm də Qəbələyə turistlərin gəlişi üçün daha yaxşı şərait yaradacaqdır.

Onu da bildirməliyəm ki, keçən il Bakı və Sumqayıt dəmir yolu vağzalları yenidən quruldu. Bakı-Sumqayıt sürət qatarı işləyir və sərnişinlər bu qatardan çox razıdırlar. Müasir vaqonlar alınır. Ümumiyyətlə biz şəhər nəqliyyatı üçün əlavə tədbirlər görəcəyik. Bu il Bakıya 300 müasir avtobusun gətirilməsi nəzərdə tutulur, keçən il imzalanmış kontraktlara əsasən 300 avtobus da əlavə. Yəni, bu il Bakıya 600 avtobus gətiriləcək. Beləliklə, həm vətəndaşların rahatlığı təmin ediləcək, həm də təhlükəsizlik baxımından əlbəttə ki, bunun böyük faydası var.

Əlbəttə, bu il görüləcək işlər çoxdur. Hamısını bir iclasda qeyd etmək mümkün deyil. Amma əsas məsələlər bunlardan ibarətdir.

İclasın sonunda bildirməliyəm ki, mən keçən il noyabr ayında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışam. Bu il biz İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edəcəyik. Keçən il Bakıda və şairin doğulduğu Şamaxı şəhərində Nəsimi günləri, Nəsimi festivalı keçirilmişdir. Bütün bunları və Nəsiminin 650 illik yubileyini nəzərə alaraq, mən 2019-cu ili “Nəsimi ili” elan edirəm. Sağ olun.

**AZƏRTAC**

# UNCOPA akademik Xoşbəxt Yusifzadəni ordenlə təltif edib





**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə dünya elmi və iqtisadiyyatı qarşısında xidmətlərinə görə "Avropa xidmət" ordeni ilə təltif edilib.**

AZƏRTAC xəbər verir ki, İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərən UN Council for Public Awards (UNCOPA) təşkilatı özünün 2018-ci il 27 dekabr tarixli qərarı ilə Azərbaycanın məşhur neftçi-alimi, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəni dünya elmi və iqtisadiyyatı qarşısında xidmətlərinə görə "Avropa xidmət" ordeni ilə təltif edib.

**AZƏRTAC**

# Azərbaycanın səfiri Rusiya XİN-də keçirilən ənənəvi görüşdə iştirak edib



**Yanvarın 11-də Moskvada Rusiya xarici işlər naziri Sergey Lavrovun Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin səfirləri ilə işçi səhər yeməyi formatında görüşü təşkil olunub. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu görüşdə iştirak edib.**

AZƏRTAC Rusiya XİN-in mətbuat xidmətinə istinadla xəbər verir ki, görüşdə 2018-ci ildə Birlik formatında çoxtərəfli qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi istiqamətində görülən işlərə yekun vurulub, yaxın bir ildə MDB-də Türkmənistanın sədrliyi ilə xarici siyasi əlaqələndirmənin möhkəmləndirilməsi əsasında prioritetlər və mühüm vəzifələr müəyyən edilib.

İştirakçılar, həmçinin aktual beynəlxalq və regional mövzular ətrafında fikir mübadiləsi aparıblar.

**AZƏRTAC**

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə Gənclər Fondu arasında anlaşma memorandumu imzalanıb





**Yanvarın 11-də Bakı Konqres Mərkəzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə Azərbaycan Respublikası Gənclər Fondu arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.**

AZƏRTAC xəbər verir ki, imzalanma mərasimində əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov mərasimdə çıxış edərək memorandumda vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, yeniyetmə və gənclərdə Vətənə məhəbbət hissinin yüksəldilməsi, onlara milli-mənəvi dəyərlərin aşılanması, gənclərin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə olunması istiqamətində birgə fəaliyyətin həyata keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov memorandumun tədbirlərin daha kütləvi, fərqli forma və məzmunda keçirilməsi istiqamətində yeni platforma olduğunu vurğulayıb. Bildirib ki, Anlaşma Memorandumu həm də iki qurum arasında qarşılıqlı maraq kəsb edən sahələrdə uğurlu faydalı əməkdaşlığın qurulması üçün möhkəm təməl olacaq.

Sonra Arzu Rəhimov və Fərid Cəfərov anlaşma memorandumunu imzalayıblar.

Anlaşma Memorandumuna əsasən, bu il ərzində "Vətənin müdafiəsinə hazıram!" devizi altında müxtəlif formatlarda keçiriləcək maarifləndirmə xarakterli silsilə tədbirlərin planı hazırlanıb. Gənclər təşkilatları və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə reallaşdırılması planlaşdırılan tədbirlərdə gənc nəslin müddətli həqiqi hərbi xidmətə fiziki, mənəvi və psixoloji cəhətdən hazırlığının artırılmasına, onların Vətənə sadiqlik ruhunda tərbiyə edilməsinə xüsusi önəm veriləcək.

İmzalanma mərasimindən sonra Dövlət Xidmətinin və Gənclər Fondunun təşkilatçılığı ilə "Gənclər və gənclər təşkilatlarının vətənpərvərliyin təşviq və təbliğ edilməsi prosesindəki vəzifələri" mövzusunda konfrans təşkil olunub.

Konfransda Azərbaycan Gənclər Fondunun gənclərlə iş şöbəsinin müdiri Orxan Ərəbov çıxış edərək gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi və onlarda Vətənə məhəbbət hissinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, bu məsələlər ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinin prioritet istiqamətlərindəndir. Məhz bu baxımdan Fond hərbi-vətənpərvərlik yönümlü layihələrin dəstəklənməsinə və maliyyələşdirilməsinə xüsusi önəm verir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbə rəisi, polkovnik Niyaz Məmmədov çıxışında Prezident İlham Əliyevin ali diqqət və qayğısı sayəsində gündən-günə hərbi qüdrətini artıran Silahlı Qüvvələrimizin regionun ən güclü ordusuna çevrildiyini vurğulayıb. Bildirib ki, Azərbaycan Ordusunun hərbi qüdrəti ilə paralel olaraq, ordumuzun döyüş qabiliyyəti, şəxsi heyətin qələbə əzmi, peşəkarlığı da artır. Bütün bunlar xalqımızın qələbəyə inamını artırmaqla yanaşı, gənclərimizi ordu sıralarına qoşularaq Vətən borcunu şərəflə yerinə yetirməyə həvəsləndirir. Bu prosesdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti mühüm rol oynayır. Bu baxımdan Dövlət Xidməti ilə Gənclər Fondu arasında əməkdaşlığa dair anlaşma memorandumunun imzalanması gənclərimizin hərbi-vətənpərvərlik ruhunun güclənməsi, gənc nəslin müddətli həqiqi hərbi xidmətə hazırlığı, onların Vətənə sadiqlik ruhunda tərbiyə edilməsi işinə mühüm töhfə verəcək.

Azərbaycan Respublikası Ehtiyatda olan Zabitlər Konfederasiyası İctimai Birliyinin sədri, general-mayor Məhəmmədhüseyn Sarıyev bildirib ki, bu gün Azərbaycan əsgəri işğal altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir. Hər bir vətənpərvər Azərbaycan gənci bu istək və arzu ilə yaşayır. Gənclərlə keçirilən görüşlərdə, çağırışçıların həqiqi hərbi xidmətə yola salınması mərasimlərində müşahidə edilən yüksək əhval-ruhiyyə, qələbə əzmi bu gün müasir Azərbaycan gəncliyinin vətənpərvər ruhda yetişdiyini və bu istiqamətdə həyata keçirilən siyasətin müsbət nəticə verdiyini göstərir.

Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Faiq Məmmədov, "ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabbarova və başqaları da tədbirdə çıxış edərək ölkəmizdə gənclərimizin hərbi-vətənpərvərlik ruhunda yetişməsi istiqamətində görülən işlərdən danışıb, bu baxımdan anlaşma memorandumunun imzalanmasının əhəmiyyətini vurğulayıblar.

**AZƏRTAC**

# Azərbaycan ombudsmanı 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar beynəlxalq qurumlara bəyanat ünvanlayıb

**Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova 1990-cı il 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar bəyanatla çıxış edib.**

Ombudsman Aparatından AZƏRTAC-a verilən məlumata görə, bəyanat BMT-nin baş katibinə, Təhlükəsizlik Şurasına, insan hüquqları üzrə ali komissarına, Qaçqınlar üzrə ali komissarına, İnsan Hüquqları Şurasına, UNİCEF-ə, UNESCO-ya, Avropa İttifaqına, Avropa Şurasına, ATƏT-ə, beynəlxalq və Avropa ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

Bəyanatda deyilir: 1990-cı il qanlı 20 Yanvar faciəsindən artıq 29 il keçir. Unudulması mümkün olmayan, insanlığa qarşı törədilmiş bu qatı cinayət hər dəfə ürəkağrısı ilə yad edilir. Yaddaşlara Qara Yanvar gecəsi kimi həkk olunmuş həmin qanlı tarix həm şəhidlərimizin anım günü, həm də Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparan xalqımızın birliyi, fəxr və şərəf günüdür. Bu hadisələr bir daha nümayiş etdirdi ki, xalqımız müstəqilliyinin, pozulmuş hüquqlarının bərpa olunması naminə savaşmaq əzmindədir.

Belə ki, 1988-ci ildən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətində baş qaldıran erməni separatizminə keçmiş SSRİ rəhbərliyi tərəfindən dəstək verilməsi və ölkəmizə qarşı qərəzli mövqe nəticəsində adı çəkilən vilayətin idarə və təşkilatlarının tədricən respublikamızın tabeliyindən çıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından deportasiya edilməsi, soydaşlarımızın ağır işgəncələrə, zorakılıqlara məruz qalması xalqımızın səbrini tükəndirmişdi. Həmin dövrdəki Sovet hökumətinin göstərişi ilə xalqımızın haqlı etirazını boğmaq, Azərbaycanda genişlənən milli-azadlıq hərəkatının qarşısını almaq üçün 20 Yanvar qırğını törədildi.

Rəsmi faktlara əsasən bildiririk ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşunları qəfildən Bakı və Sumqayıt şəhərlərinə, habelə ölkəmizin digər şəhər və rayonlarına yeridilmiş, hərbi gəmilərlə gətirilmiş desant qrupları, tanklar və digər ağır hərbi texnikadan istifadə etməklə, dinc əhalini atəşə məruz qoymuş, bununla da beynəlxalq hüquq normaları, keçmiş SSRİ-nin və Azərbaycan SSR-in konstitusiyalarının müvafiq müddəaları, fundamental insan hüquqları kobudcasına pozulmuş, doğma yurdunun azadlığının və öz hüquqlarının müdafiəsinə qalxmış çoxmillətli xalqımıza qarşı insanlıq əleyhinə qatı cinayət törədilmişdir.

Bakıya daxil olan silahlı qoşunlar milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq, 147 nəfər silahsız mülki şəxsi, o cümlədən yaşlıları, qadınları və uşaqları amansızcasına öldürüb, paytaxtda, şəhərətrafı qəsəbələrdə və rayonlarda 744 dinc, günahsız insan yaralanıb, yüzlərlə adam itkin düşüb, 841 nəfər qanunsuz həbs edilib. Həmin hadisələr zamanı hətta yaralıları çıxaran təcili tibbi yardım maşınlarına və həkimlərə də atəş açılıb, nəticədə tibb işçiləri şəhid olub, yaralanıblar. Qadağan edilmiş silah və sursatdan istifadə etməklə ölçüyəgəlməz dağıntılar törədilib. Hadisə ilə bağlı məlumatın əhalidən gizlədilməsi məqsədilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təşkil etdiyi təxribat nəticəsində respublika televiziyasının enerji bloku partladılıb.

O dövrdə bu qanlı hadisələrlə bağlı Azərbaycan xalqı adından ümummilli lider Heydər Əliyev Moskva şəhərində sərt bəyanat verib, 20 Yanvar faciəsində xalqımıza qarşı törədilmiş qırğına siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını tələb edib.

Qeyd olunmalıdır ki, həmin hadisələr xalqımızın iradəsini qıra bilməyib və azadlıq mübarizəsi 1991-ci ildə Azərbaycanın öz müstəqilliyinin bərpası ilə nəticələnib.

Prezident Heydər Əliyevin tövsiyəsi ilə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi sessiya keçirib və bu qanlı hadisəyə siyasi-hüquqi qiymət verilib. 20 Yanvar tarixi respublikamızda hər il Ümumxalq hüzn günü kimi qeyd olunur və həmin gün yüz minlərlə insan tərəfindən şəhidlər ehtiramla yad edilir.

Faciə zamanı qətlə yetirilmiş, müxtəlif millətlərdən olan Azərbaycan Respublikası vətəndaşlarına ölkə Prezidentinin müvafiq Fərmanına əsasən "20 Yanvar Şəhidi" fəxri adı verilib, habelə "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" Sərəncama əsasən, müxtəlif tədbirlər həyata keçirilir, bu şəxslərə dövlət tərəfindən müavinət, şəhid ailələrinə isə Prezident təqaüdü verilir.

Hər il olduğu kimi, bu il də dünya ictimaiyyətinin diqqətini həmin qanlı hadisələrə yönəltmək məqsədilə müvafiq Sərəncamla "20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib və icra olunur.

Həmin dəhşətli faciə dinc əhalinin qırılmasına səbəb olub. Nəticədə BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və digər beynəlxalq hüquqi sənədlər kobud şəkildə pozulub. Lakin öz mahiyyətinə və miqyasına görə XX əsrdə törədilmiş ən dəhşətli cinayətlərdən olan 20 Yanvar hadisələrinə indiyədək beynəlxalq hüquqi qiymət verilməyib, qanlı aksiyanın sifarişçiləri və icraçıları cəzalandırılmayıb.

Beynəlxalq hüquqa əsasən, 20 Yanvar faciəsi insanlıq əleyhinə cinayət kimi tövsif edilməlidir. Belə ki, Beynəlxalq Cinayət Məhkəməsinin Statusunun 7-ci maddəsinə əsasən, insanların məhv edilməsi, məcburi yoxa çıxarılması, siyasi, irqi, etnik, mədəni və ya cinsi motivlərə görə təqib edilməsi, işgəncə, qəsdən güclü iztirablara səbəb olma və ya ağır bədən xəsarətləri, yaxud fiziki və ya psixi sağlamlığa mühüm ziyan vurmaqdan ibarət olan digər qeyri-insani hərəkətlər insanlıq əleyhinə cinayət kimi tövsif edilir.

O dövrdə Sovet dövlətinin rəhbərliyi beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, həmin cinayətlə Ermənistana dəstək verib, nəticədə Azərbaycana qarşı uzunmüddətli erməni təcavüzü, etnik təmizləmə, soyqırımı baş verib, respublikamızın torpaqlarının 20 faizi zəbt edilib, Ermənistan ərazisindən, ölkəmizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf yeddi rayondan yerli azərbaycanlı əhali zorla qovulub. Bu hadisələr kütləvi şəkildə dinc əhalinin fundamental hüquqlarının pozulması ilə nəticələnib və indiyədək bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşayır.

Azərbaycan tərəfi bu münaqişənin sülh yolu ilə həllinə mütəmadi olaraq səylər göstərir, təşəbbüslər irəli sürür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmasının, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini dəfələrlə və qətiyyətlə nüfuzlu beynəlxalq qurumların, o cümlədən BMT Baş Assambleyasının tribunalarından bəyan edib. Bu isə nüfuzlu beynəlxalq qurumların müvafiq qərarlarında, o cümlədən Avropa Parlamentinin 2018-ci il dekabrın 12-də qəbul etdiyi və Azərbaycanın ərazi bütövlüyünün bir daha vurğulandığı Qətnamədə öz əksini tapıb.

Qeyd olunmalıdır ki, 29 il əvvəl törədilmiş 20 Yanvar hadisələrinin beynəlxalq hüquqa əsasən, beynəlxalq cinayətlərin ən ağır növlərindən olan insanlıq əleyhinə cinayət kimi tövsif edilməsi üçün kifayət qədər hüquqi sənədlər, eyni zamanda, bu qətliamın icrasına əmr verənlərin və törədənlərin, ən əvvəl isə o vaxtki sovet dövləti rəhbərliyinin cinayət məsuliyyətinə cəlb olunması üçün yetərincə əsaslar mövcuddur.

Bu kimi halları törədənlərin cəzalandırılmaması dünyanın hədəflədiyi əsas prioritetlərə, BMT-nin prinsiplərinə, Dayanıqlı İnkişaf Məqsədlərinə ziddir.

Biz dünya ictimaiyyətini və beynəlxalq qurumları Azərbaycan xalqının haqlı tələblərini dəstəkləməklə, insanlıq əleyhinə bu cinayəti törətmiş şəxslərin layiqincə cəzalandırılması naminə bu qanlı aksiyaya beynəlxalq hüquqi qiymət verməyə çağırırıq.

**AZƏRTAC**

*XİN:*

# Mariya Zaxarovanın təxribat xarakterli bəyanatı Azərbaycan-Rusiya əlaqələrinə mənfi təsir göstərməyəcək

**Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə yaxşı bəllidir ki, uzun illər ərzində Ermənistan Azərbaycana qarşı işğalçı siyasət aparır. Bu siyasət nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal edilib, bir milyondan çox insan etnik təmizləməyə məruz qalaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan silahlı qüvvələrinin 1992-ci il 26 fevral tarixində törətdiyi Xocalı soyqırımı nəticəsində aralarında azyaşlı uşaqlar, qadınlar və yaşlı insanlar olmaqla 613 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilib. BMT Təhlükəsizlik Şurasının 1993-cu il tarixli məlum 4 qətnaməsində (822, 853, 874 və 884) işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxardılması və bu ərazilərdən zorla qovulmuş insanların öz doğma yurd-yuvalarına geri qayıtması tələbi əks olunub. Rusiya Federasiyası BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi sözügedən qətnamələrin qəbul olunmasına səs verib. Lakin 25 ildən artıqdır ki, Azərbaycan torpaqları işğal altındadır və bu qətnamələrin tələbləri icra olunmur.**

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın erməni əsilli Rusiya vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə buraxılmaması ilə bağlı açıqlamasına dair şərhində bildirib.

O deyib ki, Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzi kimi tanınır. Azərbaycan Ermənistandan fərqli olaraq çoxmillətli dövlətdir. Bir çox xalqların, o cümlədən erməni xalqının nümayəndələri Azərbaycan Respublikasında sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Hazırda ölkəmizdə 30 mindən çox erməni əsilli Azərbaycan vətəndaşı yaşayır. Ermənistan isə monoetnik dövlətdir.

Azərbaycan Respublikası və Rusiya Federasiyasının prezidentləri səviyyəsində keçirilmiş çoxsaylı görüşlərdə Azərbaycanın bu istiqamətdə fəaliyyət və səyləri Rusiya tərəfindən yüksək qiymətləndirilir. Ermənistanda erməni əsilli uşaqlara rusdilli məktəblərdə təhsil almaq məhdudiyyəti qoyulduğu halda, Azərbaycanda rus dilində 340-dan çox tədris müəssisəsi var. Ermənistanda isə belə məktəbləri barmaqla saymaq olar.

Azərbaycan hər zaman Rusiya Federasiyasının vətəndaşları üçün açıqdır. Yalnız 2018-ci ildə 880 min Rusiya vətəndaşı ölkəmizdə səfərdə olub və onlar tərəfindən bir dəfə də olsun qeyd edilən məsələlərlə bağlı şikayət olunmayıb. Səfər edən Rusiya vətəndaşlarının böyük əksəriyyəti səfərlərindən məmnun qalıb və göstərilmiş qonaqpərvərliyə görə təşəkkürlərini bildiriblər. Qeyd etmək istərdik ki, səfər edənlər arasında erməni əsilli Rusiya vətəndaşları da olub. Eyni zamanda, Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə, idman yarışlarında, mədəni tədbirlərdə nəinki erməni əsilli Rusiya vətəndaşları, hətta Ermənistan vətəndaşları da iştirak edib və onların heç bir problemi olmayıb.

Əfsuslar olsun ki, bu ilk dəfə deyil ki, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin mətbuat katibi ikitərəfli strateji münasibətlərin ruhuna zidd olan bəyanatlarla çıxış edir. Azərbaycan-Rusiya əlaqələrinin inkişafı fonunda Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmisinin sözügedən bəyanatı və hansısa fərdi məsələni ümumi kontekstdən çıxararaq şişirtmə cəhdləri qeyd etdiyimiz ümumu tendensiyanın növbəti təzahürüdür. Görünür ki, son vaxtlar Ermənistan-Rusiya əlaqələrində ciddi problemlərin yaranması və bunun əksinə olaraq Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişafı (təkcə ötən il ərzində iki ölkə prezidentləri 6 dəfə görüşüblər) Rusiya XİN-də bəzilərini çox ciddi narahat edir. Rusiya Federasiyası XİN-in mətbuat katibi bəyan edib ki, "Azərbaycan tərəfi söz verib ki, bu vəziyyəti düzəldəcəkdir". Biz bunu qətiyyətlə təkzib edirik. Azərbaycan-Rusiya münasibətləri bərabərhüquqlu əlaqələrdir və "vəziyyəti düzəldəcəklər" ifadəsi ikitərəfli münasibətlərin mahiyyətinə ziddir.

Əminik ki, Rusiya XİN-in mətbuat katibinin növbəti təxribat xarakterli və anti-Azərbaycan bəyanatı Azərbaycan-Rusiya əlaqələrinə mənfi təsir göstərməyəcək. Azərbaycan-Rusiya münasibətlərini xarici siyasət orqanları deyil, Azərbaycan və Rusiya prezidentləri müəyyən edir və hər iki tərəf bu münasibətlərin inkişafı üçün böyük maraq və səy göstərir.

**AZƏRTAC**

# GDU-da media nümayəndələri imtahan prosesini izləyiblər

Gəncə Dövlət Universitetində (GDU) 2018-2019-cu tədris ilinin qış imtahan sessiyasının gedişini müşahidə etmək üçün KİV nümayəndələrinin iştirakı ilə mediatur təşkil olunub. Mediaturda tələbələrin valideynləri və ictimaiyyət nümayəndələri də iştirak ediblər. Media nümayəndələri imtahan otaqlarında olub, ayrı-ayrı fənlər üzrə 500 nəfər tələbənin biliyinin eyni vaxtda yoxlandığı yazılı imtahan prosesini izləyiblər. Rektorun müşaviri Asif Cavadov, tədris işləri üzrə prorektor Fəxrəddin Məmmədov, humanitar işlər üzrə prorektor Gülsüm Fətəliyeva və fakültə dekanları KİV təmsilçilərinə imtahan prosesi barədə ətraflı məlumat verib, media nümayəndələrini maraqlandıran sualları cavablandırıblar. Bildirilib ki, ümumilikdə altı min tələbənin biliyinin yoxlanacağı imtahan sessiyası həm əyani, həm də qiyabi şöbə üzrə yazılı, şifahi formada, test üsulu və qabiliyyət üzrə olmaqla fevralın 1-dək davam edəcək. İmtahan sessiyasının mövcud normativ sənədlərə uyğun təşkili məqsədilə universitet rəhbərliyi tərəfindən xüsusi komissiya yaradılıb. Vurğulanıb ki, GDU-da 2018-2019-cu tədris ilinin imtahan sessiyasının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədilə imtahan sessiyası dövründə yarana biləcək neqativ halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun keçirilməsinə kömək etmək üçün operativ qərargah fəaliyyətə başlayıb. Eyni zamanda universitetin gdu.edu.az saytında yerləşdirilmiş telefon nömrələri, rəsmi "facebook" ünvanı olan "Gəncə Dövlət Universiteti", mail@gdu.edu.az ünvanlı elektron poçtu və "Qaynar xətt" elan edilib.



Mediatur iştirakçılarına bu il universitetdə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın zənginləşdirilməsi istiqamətində aparılan işlər, eləcə də ali təhsil müəssisəsində yaradılan idarəetmə, tədris və imtahan prosesi, Azərbaycanın və Avropanın qabaqcıl elm-təhsil ocaqları ilə yaradılan ikitərəfli qarşılıqlı əməkdaşlıq istiqamətləri, həyata keçirilən səmərəli beynəlxalq layihələr və onların müsbət nəticələri haqqında məlumat verilib. Çıxış edənlər media mənsubları ilə ali təhsil müəssisəsi arasındakı əməkdaşlığın mahiyyətindən söz açaraq bu əlaqələrin davamlı olmasının əhəmiyyətini vurğulayıblar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Milli Kitabxanada "Dilçilik elmində Afad Qurbanov irsi" adlı kitabın təqdimatı



Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli dilçi-alimi, türkoloq, ictimai xadim, müasir Azərbaycan Əlifbasının müəllifi və Onomastika Elmi Məktəbinin banisi, akademik Afad Qurbanovun 90 illik yubileyinə həsr olunmuş Sayalı Sadıqovanın "Dilçilik elmində Afad Qurbanov irsi" adlı kitabının təqdimat mərasimi keçirildi.

İlk olaraq tədbir iştirakçıları görkəmli alim, ictimai xadim Afad Qurbanovun 90 illiyinə həsr olunmuş "Görkəmli dilçi-alim Afad Qurbanov 90" adlı geniş kitab sərgisi ilə tanış oldular.

Tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq qonaqları salamladı və çıxışında görkəmli azərbaycanşünas alim, dünya şöhrətli türkoloq Afad Qurbanovun türkologiya, Ümumi dilçilik və Azərbaycan dilçiliyi sahəsində dəyərli araşdırmaların müəllifi olduğunu söylədi. Afad Qurbanovun elmi yaradıcılığının zəngin və çoxşaxəli olduğunu bildirən professor Kərim Tahirov akademikin Azərbaycan ədəbi, türkoloji dilçilik, onomalogiya, leksikologiya, nitq mədəniyyəti, tərcüməşünaslıq, bədii əsərlərin dili, üslubiyyat, ali məktəb pedaqogikası və metodikası kimi sahələrdə yazdığı çoxsaylı, irihəcmli fundamental kitablarının elmi işçilər və tədqiqatçılar üçün dəyərli mənbə olduğunu söylədi.

Daha sonra AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu çıxış edərək akademik Afad Qurbanovun zəngin, çoxşaxəli elmi yaradıcılığından, elmi kadrların yetişdirilməsində səmərəli fəaliyyətindən geniş söhbət açdı. O qeyd etdi ki, Afad Qurbanov Azərbaycan dilçilik elmini zirvələrə qaldıran, ömrünü dilimizə həsr edən bir şəxsiyyət olub.

ADPU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Nizami Xudiyev alimin Azərbaycan dilçiliyi sahəsində apardığı dəyərli araşdırmaları haqqında geniş məlumat verdi və akademik Afad Qurbanovun Azərbaycan dilçilik elmində böyük məktəb yaratdığını, yüksəkixtisaslı kadrlar yetişdirdiyini bildirdi.

ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Buludxan Xəlilov görkəmli alim Afad Qurbanovun latın qrafikalı yeni Azərbaycan Əlifbasının yaranmasında göstərdiyi misilsiz xidmətlərdən və dilçilik elmindəki nailiyyətlərindən danışaraq, alimin yazdığı hər bir kitabın dilşünas alimlərin, tələbələrin, tədqiqatçıların stolüstü kitabı olduğunu bildirdi. Buludxan Xəlilov çıxışında onu da qeyd etdi ki, akademik Afad Qurbanovun xüsusi xidmətləri sayəsində onomastik konfranslar təşkil olunmuş və materialları toplu halında çap olunmuşdur.

Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova müəllifi olduğu "Dilçilik elmində Afad Qurbanov irsi" adlı monoqrafiyada Afad Qurbanovun dilçiliyin müxtəlif sahələrini və əlifba məsələsini əhatə edən konseptual elmi-tədqiqat əsərlərinin, yaradıcılıq yolunun təhlil edildiyini söylədi.

AMEA-nın müxbir üzvü, professor Vəli Əliyev, filologiya elmləri doktoru, professor İsmayıl Məmmədli, filologiya elmləri üzrə fəlsəfə doktoru İradə Kərimova, professor Asəf Zamanov, Xalq şairi Nəriman Həsənzadə və digər ziyalılar çıxış edərək görkəmli alim Afad Qurbanovun Azərbaycan dilçilik elminə verdiyi böyük töhfələrdən, eləcə də latın qrafikalı yeni Azərbaycan əlifbasının yaranmasında göstərdiyi xüsusi xidmətlərindən geniş söhbət açdılar.

Sonda Azərbaycanın görkəmli dilçi-alimi, türkoloq, Əməkdar elm xadimi, akademik Afad Qurbanovun ailəsi adından hüquq elmləri doktoru, professor Ramin Qurbanov çıxış edərək tədbir iştirakçılarına öz təşəkkürünü bildirdi.

**Humanitar siyasət redaksiyası.**

# Zərdabi irsinin tədqiqatçısı



**Mən bir alim, gözəl insan, tədqiqatçı, filosof, nəhayət, BDU-nun Sosiologiya kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmov haqqında danışmaq istəyirəm.**

Fəlsəfə elmləri doktoru, professor, akademik S.İ.Vavilov adına medalın laureatı, Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının akademiki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi", 1984-1994-cü illərdə ADNA-nın Fəlsəfə kafedrasının müdiri, 1987-1988-ci illərdə Azərbaycan KPMK yanında Partiya Tarixi İnstitutu direktorunun elmi işlər üzrə müavini, 1994-1999-cu illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini, 1999-2004-cü illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru işləmişdir. Eyni zamanda professor İzzət Rüstəmov bir çox elmi məqalə, kitab və monoqrafiyanın müəllifidir. Onun elmi rəhbərliyi ilə Azərbaycanda ilk dəfə olaraq "Fəlsəfə ensiklopedik lüğəti" (1997, 500 səh.) hazırlanmışdır. "Qısa estetika lüğəti"ni (A.Aslanovla müştərək), "Ateistin cib lüğəti"ni, "Elmin gəncliyi" monoqrafiyası və bir çox digər əsərləri Azərbaycan dilinə tərcümə etmişdir. Eyni zamanda onun rus dilindən tərcümə etdiyi "Ümumi sosiologiya" kitabı daha çox diqqəti cəlb edir. Belə ki, kitab ali məktəb tələbələri üçün lazımi bir dərs vəsaitidir. İzzət müəllim 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. O, Azərbaycanın Milli Qəhrəmanı, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhid Məzahir Rüstəmovun atasıdır.

Nə qədər gözəl, xoş sözlər varsa, o da, İzzət müəllimə xasdır. İzzət müəllimlə mən necə tanış oldum? İzzət müəllimi mənim elmi işimə ekspert təyin etdilər. Mən dissertasiyamı aparıb ona qol çəkdirməli idim. BDU-ya gedib qapısını döydüm. İçərdən səs gəldi. Mən çəkinə-çəkinə içəri keçdim. Qarşımda zəhmli bir insan gördüm. Dedim ki, İzzət müəllim bu dissertasiyaya qol çəkə bilərsinizmi? Dedi ki, yox, oxumamış heç nəyə qol çəkə bilmərəm. İzzət müəllim mənim elmi işimi nöqtə, vergülünə qədər oxudu. Mən ona ömrüm boyu minnətdaram ki, heç bir təmənna güdmədən mənim elmi işimi yoxladı. Sonra opponentim oldu, rəy yazdı.

Müdafiəmdə gözəl çıxışı ilə hamını heyrətləndirdi. Mən çox sevindim. Şöbə müdirim, rəhmətlik Ağayar Şükürov həmişə mənə deyirdi ki, sənə nə var ki, İzzət Rüstəmov kimi professor sənin arxandır. Mən bununla fəxr edirdim. Çünki mənim heç kimim yox idi ki, mənə köməklik göstərsin. Hər bir işə öz gücümlə nail olmuşam. Bir də ki, qarşıma çıxan xeyirxah, qayğıkeş İzzət müəllim kimi alimlərin hesabına. İzzət müəllim mən müdafiə etdikdən sonra müdiri olduğu Sosiologiya kafedrasına məni dərs saatı verdi. Ağlıma belə gətirməzdim ki, mən BDU-da dərs deyəcəyəm. BDU-nun məzunu olsam da bunu təsəvvürümə gətirə bilməzdim. Çünki bu sahədə heç kimdən kömək gözləmirdim.

İndi Həsən bəy Zərdabi irsinin tədqiqatçısı kimi İzzət müəllimdən söhbət açmaq istəyirəm. İzzət müəllim sanki Zərdabini tədqiq etməmişdir, onunla yaşamışdır. Hörmətli professor Zərdabini elə tədqiq etmişdir ki, mən deyərdim ki, belə bir tədqiqat işinə az-az rast gəlmək olar. İzzət müəllim Zərdabinin təbiətşünaslığa aid bütün əsərlərini hərtərəfli tədqiq etmiş, ona öz münasibətini bildirmişdir. H.Zərdabinin etik və estetik görüşlərini, fəlsəfi, ictimai-siyasi baxışlarını ümdə məsələlərdən biri olan maarifpərvər fəaliyyətini xüsusi məhəbbətlə tədqiq etmişdir.

İzzət müəllim yazır ki, Həsən bəy Zərdabi bədən və ruh, materiya və şüur məsələsinə də əsərlərində toxunmuşdur. Zərdabiyə görə, şüur materiyanın məhsuludur. Onun nəzərincə, şüur yalnız materiyadan sonra yaranmışdır, şüur hər cür üzvi materiyanın deyil, canlı materiyanın məhsuludur. Zərdabi belə hesab edirdi ki, insan öz beyni ilə birlikdə üzvi təbiətin inkişafının müəyyən mərhələsində, tarixin müəyyən təkamül prosesini keçərək üzvi materiyanın uzun sürən inkişafı nəticəsində meydana gəlmişdir. Qeyd etmək lazımdır ki, Zərdabi bitkilər, heyvanlar və insanın meydana gəlməsində ümumi bir mənşəyin olduğu fikrini söyləyir və belə qənaətə gəlir ki, insan da heyvandan əmələ gəlmişdir. O, "Elmi-heyvanatdan" adlı məqaləsində yazır: "İnsanın bədəninin üzvlərindən danışan vəqtdə arabir deyirik ki, filan heyvanın filan üzünə bax. Həqiqət, insan da qeyri-heyvanların birisidir. İnsan yemək-içməkdə, nəfəs almaqda, doğub-törəməkdə və qeyridə heyvandır və heyvanlar cümləsinə daxildir". Hörmətli professor qeyd edir ki, lakin Zərdabi insanı heyvanlarla eyniləşdirmir. O, insanlarla heyvanlar arasındakı müqayisəli və fərqli cəhətləri izah edir. İzzət müəllim "Həsən bəy Zərdabi" kitabında yazır ki, Zərdabi şüuru beynin məhsulu hesab edir. Bu məsələdə onun fikri idealizmlə ziddiyyət təşkil edir. İdealist fəlsəfəyə görə, şüur qeyri-maddi substansiya olan "ruhun" məhsuludur. "Ruh" guya materiyadan, insan bədənindən asılı deyildir. Zərdabi bu cür iddianı rədd edərək göstərir ki, insan bədənindən asılı olmayan, guya bədən öləndən sonra uzun müddət müstəqil yaşamaqda davam edən ruh deyilən şey yoxdur. Bəzi materialistlər şüurun əmələ gəlməsi problemini izah etməklə çətinliyə düşərək şüuru materiyanın atributu, onun ayrılmaz əbədi xassəsi hesab etmişlər. Guya şüur materiyanın bütün formalarına xasdır. Materialistlərdən bəziləri isə dünyanın maddi cəhəti prinsipini düzgün anlaya bilməyərək, az qala şüuru inkar edirdilər. Onlar belə hesab edirdilər ki, şüur qaraciyər öd hazırlayan kimi beyin tərəfindən hazırlanan xüsusi bir materiyadır. Bu nöqteyi-nəzərdən olanlar vulqar materialistlər idilər.

İ.Rüstəmov H.Zərdabinin ictimai-siyasi görüşlərindən bəhs edərək yazır ki, Həsən bəy Zərdabi çarizmin ölkədə yaratdığı "qayda-qanunları" öz gözləri ilə görmüş, onlara dərin nifrət bəsləmişdir. Buna görə də onu daim təqib etmişlər. Çar idarələrində işləməsinə baxmayaraq Zərdabi heç bir vaxt çarizim ilə ideya sahəsində olmamış, əksinə həmişə onların qeyri-insani təbiətini ifşa etmişdir. Zərdabi "Əkinçi" qəzetinin ilk nömrəsində çarizmin mənfur sifətlərini açaraq feodal üsul-idarəsinin artıq yarıtmaz olduğuna işarə edərək yazırdı "Bəs olmaz ki" dünyada həmişə bir qayda ilə rəftar olsun və səlah deyil ki, xalqı keçmiş zamanın qaidəsi ilə yaşamağa məcbur edəsən. O qəti olaraq inanırdı ki, çarizm xalqı həm maddi və həm də mənəvi cəhətdən sıxaraq tərəqqiyə mane olur. İ.Rüstəmov "Həsən bəy Zərdabi" kitabında Zərdabinin fəlsəfi görüşlərinə də geniş və hərtərəfli tədqiq edərək yazır ki, Zərdabi fəlsəfi məsələlərlə bilavasitə məşğul olmasa da, lakin onun dünyagörüşündə olduqca maraqlı və qiymətli fəlsəfi ümumiləşdirmə və nəticələrə rast gəlinir. İ.Rüstəmov göstərir ki, Zərdabi Günəş sisteminin planetlərindən biri olmaq etibarı ilə Yerin əmələ gəlməsi haqqında idealist və dini fikirləri rədd edərək, belə qənaətə gəlir ki, Yer heç bir ilahi qüvvənin əli olmadan tarixi-təbii təkamülün nəticəsində meydana gəlmişdir. Zərdabi dini xurafatı rədd edərək belə bir əqidəyə gəlir ki, yer və göy arasında müəyyən istisnalara mahiyyət etibarı ilə heç bir fərq yoxdur. Günəş, Yer və Ay öz vahid əbədi qanunları üzrə hərəkət edir.

İzzət müəllim bu kitabında Zərdabinin mövhumat və cəhalətə qarşı mübarizəsini, etik və estetik görüşlərini hərtərəfli və dərindən, böyük zövq və sevgi ilə tədqiq etmişdir. Eyni zamanda görkəmli alimimiz Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti və onun bütün şöbələrini geniş şəkildə tədqiq etmişdir.

Professor yazır ki, "Əkinçi"dən yazmaq Həsən bəy Zərdabidən yazmaq deməkdir. H.Zərdabi özünün maarifçilik ideyalarını, mövhumata, cəhalətə qarşı mübarizəsini məhz "Əkinçi" qəzeti vasitəsilə geniş xalq kütləsinə üstüörtülü priyomlarla çatdırırdı. İzzət Rüstəmov yazır ki, Zərdabi irsinin şah əsəri "Əkinçi"dir. Hörmətli İzzət müəllim, mən deyərdim ki, Sizin də şah əsəriniz Həsən bəy Zərdabiyə həsr etdiyiniz tədqiqat işləridir. Həqiqətən də İ.Rüstəmov Zərdabi irsini elə tədqiq etmişdir ki, bir daha onu tədqiq etməyə ehtiyac duyulmur.

Zərdabi hər iki nöqteyi-nəzərin əsassız olduğunu göstərərək konkret olaraq sübut edir ki, şüur nə materiyanın bir formasıdır, nə də hər cür üzvi materiyanın məhsuludur. Şüur psixi fəaliyyətin yüksək forması olmaq etibarı ilə üzvi materiyanın inkişafının yüksək məhsulu kimi meydana gəlmişdir.

"Həsən bəy Zərdabi" kitabından sonra İzzət müəllim 2014-cü ildə "Философские проблемы развития естественнонаучной мысли в Азербайджане (XIX начало XX вв.)" kitabını nəşr etdirmişdir.

"Respublika" qəzetinin xüsusi buraxılışı olan "Həsən bəy Zərdabi" adlı nəşrdə də İzzət müəllimin Zərdabi irsinin şah əsəri adlandırdığı "Əkinçi"yə aid silsilə tipli məqalələri ilə geniş oxucu kütləsində maraq doğurur. "Respublika" qəzetinin baş redaktoru, hörmətli professor Teymur Əhmədovun tərtib etdiyi bu kitab 2015-ci ilə Milli mətbuatın 140 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə oxuculara təqdim olunmuşdur. "Əkinçi" qəzetini nəşr etməklə milli mətbuatımızın bünövrəsini qoyan Həsən bəy Məlikov Zərdabinin həyatı, mühiti və mübarizəsi barədə dolğun təsəvvür yaradılır. "Философские проблемы развития естественнонаучной мысли в Азербайджане (XIX начало XX вв.)" kitabını rus dilində nəşr etdirmişdir. Bu kitabda görkəmli professorumuz XX əsrin birinci yarısında Azərbaycanda təbii-elmi biliklərin fəlsəfi problemlərini işıqlandırmışdır. O, bu sahəni tədqiq edərək dahi mütəfəkkirlərimizdən olan maarifpərvər ziyalılarımızın fikir və mülahizələrini geniş şəkildə əks etdirmişdir. İzzət müəllim bu kitabda A.A.Bakıxanovun dünyanın elmi, coğrafi xəritəsi haqqında fikir və düşüncələrini, F.F.Axundovun tibbin və biologiyanın fəlsəfi problemləri haqqında mühakimələrini, Həsən bəy Zərdabinin, N.Nərimanovun və b. yazıçılarımızın Azərbaycan fəlsəfəsinin inkişafındakı rolunu geniş şəkildə tərtib etmişdir.

Respublikamızın Prezidenti İlham Əliyev öz çıxışlarının birində qeyd etmişdir ki, "Mətbuatımız ölkəmizdə müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir".

Bəli, bu gün bu dəyərlərin qorunub saxlanmasında, yerinə yetirilməsində və geniş əhali kütləsi arasında təbliğində hörmətli professorumuz, "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədovun xidmətləri ölçüyəgəlməz dərəcədə çoxdur. Buna görə də zəhmət çəkib görkəmli mütəfəkkirlərimiz haqqında tədqiqat işləri aparan mənəvi dəyərlərimiz olan professor - İzzət Rüstəmov, Teymur Əhmədov kimi görkəmli alimlərə minnətdar olmalıyıq.

**Firuzə ƏLİYEVA,**
**AMEA-nın Fəlsəfə İnstitutu, dosent, fəlsəfə üzrə fəlsəfə doktoru.**

# "Vikipediya"da Milli qəhrəmanlarımız haqqında xarici dillərdə məqalələr yerləşdirilib

AMEA Mərkəzi Elmi Kitabxanası (MEK) ilə Dünya Azərbaycanlıları Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "WAY Wiki Team"ın əməkdaşlığı uğurla davam edir. Əməkdaşlıq çərçivəsində Azərbaycanın Milli qəhrəmanları İsgəndər Aznaurov və Mehdi Abbasov haqqında Ukrayna, ərəb, fransız, yunan dillərində olan "Vikipediya"larda məqalələr yerləşdirilib. Məqalələrdə Milli qəhrəmanlarımızın həyatı və keçdikləri döyüş yolu barədə ətraflı məlumat verilir.

Qeyd edək ki, Azərbaycanın Milli qəhrəmanları haqqında digər dillərdə də məqalələrin yer alması nəzərdə tutulub.

**İctimaiyyətlə əlaqələr bölməsi.**

*Yeni nəşrlər*

# "Ulularım və həyat yolum"

Gəncənin əslzadə və ziyalı ailəsində böyümüş, şərəfli ömür yolu keçmiş, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etmiş, yüksək vəzifələrə ləyaqətlə pillə-pillə qalxmış, gözəl şəxsiyyət kimi tanınmış, 50 ildən artıq dövlət qulluğunda çalışmış nəcib, xeyirxah vətən oğlu Surxay Tağızadənin bu yaxınlarda nəşr olunmuş "Ulularım və həyat yolum" xatirələr kitabının ön sözündə mənalı həyat tarixçəsini belə başlayır: "Etiraf edirəm ki, artıq memuarları dərc edilmiş dostlarımın təkidli xahişlərinə baxmayaraq, bu xatirələri yazmaqda tərəddüd edirdim. Düşünürdüm ki, mənim həyat və fəaliyyətim, doğmalarım və qohumlarım haqqında mətbuatda kifayət qədər yazı dərc edilmişdir. Müəllimlərim, doğmalarım, dostlarım, iş yoldaşlarım haqqında yazdığım xatirələrdə istər-istəməz öz fəaliyyətim də əksini tapmışdır. Bundan sonra bu barədə yazmağa dəyərmi? Lakin bütün bunlar pərakəndə halda müxtəlif kitablarda, qəzet və jurnallarda dərc edilmiş yazılar idi. Onları bir yerə yığmaq, bir kitabda cəmləşdirmək, olub-keçənləri gələcək nəsilə çatdırmaq zəruriyyəti də var idi.

Anadan olduğum 1932-ci ildən bu yana keçdiyim həyat yolu da heç hamar olmayıb. Hələ uşaqkən doğmalarımın tutulmasını, keçən əsrin repressiyalarını, dəhşətli II Dünya müharibəsinin əzablı günlərini, müharibədən sonrakı ağır illərini gözümlə görmüş, onların ağrı-acıları ilə yaşamışam. Əslində mən və mənim yaşıdlarım uşaqlıq nə olduğunu bilməmiş uşaqkən böyümüş, mətinləşmiş, zamanın qayğı və zəhmətlərini öz çiynimizdə daşımışıq...".

Bu kədərli, üzüntülü notla ömür kitabının səhifələrini vərəqləyərkən, Surxay Tağızadə təsəlli hissilə yazır ki, həmin ağır illərdə zəhmətsevərlik, dözüm, iradə onun gələcək taleyinə işıq saçmışdı. Tələbəlik illərində də, elmlə məşğul olduğu zamanda da, müxtəlif vaxtlarda jurnalistik fəaliyyətində də bu işıqlı yol onu parlaq taleyə qovuşdurdu. Bu mənalı, şərəfli yolun zirvəsi onun 10 il müdrik insan Heydər Əliyevin rəhbərliyi altında işlədiyi dövr idi. Bu şərəf ona qismət oldu.

Ulu öndərimiz Heydər Əliyevin adı və rəhbərliyi ilə bağlı olan dövrü əks etdirən bu xatirələr Azərbaycanın tarixində maraqlı, çox gərəkli və qiymətlidir.

12 bölmədən ibarət olan bu xatirələrdə 40 mövzu oxuculara təqdim edilir. Hər biri də bir-birilə əlaqədardır. Onlardan birində — "10 il" "Mərkəzi Komitədə" adlı bölmədə oxuyuruq: "... 1970-ci il sentyabr ayının əvvəllərində Azərbaycan KP Mərkəzi Komitəsinin Kənd Təsərrüfatı Şöbəsinin müdirinin müavini Nikolay Volodin zəng edib, təcili Mərkəzi Komitəyə gəlməyimi tapşırdı. Bundan əvvəl bir neçə dəfə Volodinlə birlikdə Mərkəzi Komitənin katibi Hacıağa İbrahimovun tapşırığı ilə heyvandarlığın inkişafına dair müxtəlif təkliflər hazırlamışdıq. Volodin dedi ki, Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin yanına gedirik. Bu mənim üçün gözlənilməz olduğundan çox həyəcanlandım.

Rəhbərlə ilk dəfə görüşəcəkdim. Heydər Əliyevin kabinetinə necə keçdiyimizi xatırlaya bilmirəm. Bizi çox səmimi qəbul etdi. Bununla da həyəcandan əsər-əlamət qalmadı. MK-nın katibi Hacıağa İbrahimov da onun yanında idi. Heydər Əliyev birbaşa mətləbə keçdi. Dedi ki, kənd təsərrüfatı bizim ən mühüm sahələrimizdən biridir. Bilirsiniz ki, avqust ayının 23-də biz Mərkəzi Komitənin Plenumunda kənd təsərrüfatının vəziyyətini müzakirə etdik. Heyvandarlıq məsələlərinə baxdıq. Lakin heyvandarlıqdakı vəziyyət məni daha çox narahat edir. Ümumittifaq miqyasında da bu sahənin vəziyyəti yaxşı deyil. Odur ki, heyvandarlığa dair ayrıca xüsusi plenum keçirməyi qərarlaşdırmışıq. Siz bu plenumun materiallarının hazırlanmasında iştirak etməlisiniz. Nəzərə alın ki, hazırlanacaq materiallar dolğun, kəsərli, səfərbəredici olmalıdır. Heyvandarlığın o zamankı vəziyyətini, qarşıda duran vəzifələri, onların həyata keçirilməsi yollarını necə işıqlandırmaq barədə tapşırıqlarını verdi. Doğrusunu deyim ki, mən heyran qalmışdım, qarşısında heç bir yazı, yaddaş yox idi. Heyvandarlığın yem bazası, damazlıq və döllük işindən tutmuş qısırlıq və xəstəliklərlə mübarizəyədək bütün məsələləri elə aydınlaşdırıb izah edirdi ki, elə bil bu sahənin mahir bilicisi idi. Əslində rəhbərin dedikləri plenumda oxunacaq hazır məruzə idi. Sonralar mən dəfələrlə bu istedadın şahidi oldum.

Qarşımızda çox mürəkkəb və çox da məsuliyyətli vəzifə dururdu. Hazırladığımız materiallar yüksək səviyyəli olmalı idi. Nikolay Volodin, kənd təsərrüfatı nazirinin heyvandarlıq məsələlərinə baxan müavini İmran Əbilov, mən və lazım gəldikdə başqa mütəxəssislər 1970-ci ilin sentyabrından dekabrınadək əsasən bu işlə məşğul olduq. Plenum dekabrın 21-də keçirildi və heyvandarlığın inkişafında bir dönüş mərhələsi oldu.

Növbəti dəfə Heydər Əliyevin qəbulunda 1971-ci il yanvarın sonunda oldum. Plenuma hazırladığımız materiallardan razı qaldığını bildirərək dedi ki, indi də plenumun qarşıya qoyduğu vəzifələrin icrası ilə məşğul olmaq lazımdır. Bu məqsədlə də səni Mərkəzi Komitəyə kənd təsərrüfatı şöbəsi müdirinin müavini vəzifəsinə gətiririk".

Surxay Tağızadə sonra yazırdı: "Mən 10 il fasiləsiz olaraq Mərkəzi Komitədə işlədim. "Azərbaycan" qəzetinin 23 dekabr 2004-cü il tarixli nömrəsində Heydər Əliyev haqqında yazdığım "Rəhbər böyüklüyü, rəhbər qayğısı" başlıqlı məqaləmdə o dövrə aid xatirələrimin hamısını əlavələrimlə və yeri gəldikcə bu kitabda qələmə almışam. Bir daha qeyd edirəm ki, həmin dövrü həyatımın hər gün səhər 9-dan axşam saat 11-12-dək və bəzən bundan da artıq işlədiyim ən gərgin, həm də ən dolğun, parlaq və şərəfli səhifələri kimi xatırlayıram".

"Ulularım və həyat yolum" xatirələr kitabında dövr və respublikamızın həyatı, inkişaf yolları, nəcib, xeyirxah, vətən sevgisi ilə yorulmadan çalışan insanlar, ulu öndərimiz Heydər Əliyevin amal və əməllərini həyata keçirmək işində sədaqətlərini göstərən kadrları haqqında böyük həvəslə, minnətdarlıq hissilə bəhs edilir. Müəllif yazır: "O vaxtdan illər keçməsinə baxmayaraq o zamankı intizam və məsuliyyət hissi məndə və Heydər Əliyevin rəhbərliyi altında işləyən yoldaşlarımda bu gün də qalmaqdadır. Heydər Əliyev kadrlardan hər zaman, hər işdə diqqətli və ədalətli olmağı tələb edirdi. Ədalətsizliyə və nöqsanlara qarşı barışmaz idi...

Heydər Əliyevdə rəhbərə xas olan bütün keyfiyyətlər vardı: tükənməz enerji, böyük təşkilatçılıq bacarığı və hər hansı bir məsələni dərindən təhlil etmək qabiliyyəti, yüksək peşəkarlıq və dəqiqlik, müdriklik, geniş dünyagörüşü, qətiyyətlilik və qeyd etdiyim kimi tələbkarlıq. Bütün bunlarla bərabər, böyük qayğıkeşlik, insanpərvərlik və nəhayət sadəlik. Bu keyfiyyətlərinə görə o, hamıya nümunə və böyük bir həyat məktəbi, xalqına və Vətəninə necə xidmət etməyi öyrənmək məktəbi idi. Respublikamızın 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində əldə etdiyi nailiyyətlər də məhz bu yüksək qabiliyyətin və insanları səfərbər etmək bacarığının nəticəsi idi".

Bunun nəticəsidir ki, respublikanın bütün təsərrüfat, elm və mədəniyyət sahələrində böyük dirçəliş, inkişaf olmuşdur. Müəllif bu yüksəlişi iftixar hissilə xatırlayıb, qeyd edir ki, həmin coşqun quruculuq illərində yüzlərlə emal müəssisələri, konserv və şərab zavodları, yem istehsalı müəssisələri, ət kombinatları, heyvandarlıq kompleksləri tikilib istifadəyə verildi.

Pambıq tarlalarında, üzüm bağlarında coşqun əmək yarışı xarüqələr yaradırdı. Respublikamız 12 il dalbadal Ümumittifaq yarışının qalibi oldu. Qırmızı bayraqlarla təltif edildi. Yüzlərlə insan Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü, orden və medallarla təltif edildi. Müəllifin dediyi kimi, kənd təsərrüfatı istehsalının stabil olaraq yüksək templə inkişaf etməsi Azərbaycan kəndinin sosial-iqtisadi vəziyyətində, onun əhalisinin həyat tərzində köklü dəyişikliklərə səbəb oldu.

Zəngin faktlar, məlumatlar, xatirələr əsasında yazılmış bu kitabın yaxşı xüsusiyyətlərindən biri də budur ki, müəllif işdə, həyatda rast gəldiyi, ünsiyyətdə olduğu, vəzifəcə böyük və kiçik əməkdaşları xoş, səmimi duyğularla xatırlayır, onların xidmətlərini yüksək qiymətləndirir. Kitabda o dövrün görkəmli alimləri, kənd təsərrüfatı mütəxəssisləri - akademik Həsən Əliyev, Musa Musayev, Firuz Məlikov, Ağaxan Ağabəyli, Həsən Seyidov, Zülfüqar Verdiyev, İkram Eyyubov, Cabbar Səttərov, Zakir Abdullayev, İmam Mustafayev, Nəriman Şirinov, Azərbaycan Baytarlıq elminin korifeyləri Məmmədtağı Qəniyev, Maqsud Həlimbəyov, Məmməd Fərzəliyev, Ağa Qayıbov, Dərya Mirzəbəyov, Məmmədağa Əlizadə və onlarla başqa şəxsiyyətlər yad olunur, haqlarında səmimiyyətlə bəhs edilir.

Ömrünün 60 ilindən çoxunu Azərbaycanda kənd təsərrüfatının və heyvandarlığın inkişafında xüsusi xidmətləri olan, alim və gözəl mütəxəssis Surxay Tağızadə işlədiyi Azərbaycan Elmi-Tədqiqat Baytarlıq İnstitutunda (səh.74), Kənd Təsərrüfatı Nazirliyində (səh.86), Respublika Həmkarlar İttifaqları Təşkilatlarında (səh.137), Partiya və dövlət işində (səh.155), Dövlət Plan Komitəsində (səh.181) yüksək səviyyəli mütəxəssis və təcrübəli kadr kimi tanınmışdır.

Surxay Tağızadə təqaüdə çıxandan sonra da bütün səyini, gücünü işə salıb. 1996-cı ildə Azərbaycan "Farımproqres" (fermerin tərəqqisi) Beynəlxalq Elmi-Texniki Əlaqələr Mərkəzi və bu mərkəzin "Azərbaycan fermeri" jurnalını təsis etmiş, 8 il bu sahədə fədakarlıqla çalışmışdır. Sonra Respublika Veteranlar Təşkilatında müavin və sədr vəzifələrində fəaliyyət göstərmişdir.

Müəllifin Gəncənin ictimai-mədəni həyatında ləyaqətli yer tutan zəhmətsevər nəsli, ailəsi, övladları, nəvə-nəticələrinə həsr etdiyi "ulularım və valideynlərim", "xatirələrim albomunda" adlı bölmələrində səmimiyyətlə, təvazökarlıqla yazdığı yığcam mətnlər, ağ-qara, rəngli fotoşəkillər də diqqəti cəlb edir.

Bu böyük şəcərəni təsvir etmək təbii ki, çətindir. Bu haqda qısaca qeyd etmək istərdik. Müəllif yazır: "Ulu babam Hüseynlə" başlayan, sonra yenə digər ulularım - Hacıyevlər, İmamquliyevlər, Ağayevlərlə doğmalaşan soykökünü bu gün nəticələrim - Məryəm, Mikayıl, Cəmil, Yusif və İmran davam etdirirlər. Soykökünün 9-cu nəsli olan ulu babalar ulu babaları Hüseyndən 200 il sonra dünyaya gəlmişlər...

Hüseyn babanın oğlu Həsənin oğlu Məhəmmədtağı olub. Soykökü-Tağızadə soyadı bu adla bağlıdır.

Məhəmmədtağı 1885-1886-cı illərdə Gəncənin zadəgan ailələrindən birinin qızı Gülsüm xanımla evlənmiş onların Məhərrəm adlı oğlu Surxay Tağızadənin babası olub.

Gəncənin ictimai-siyasi həyatında, xüsusilə 1905-1907-ci illər və 1917-ci il fevral inqilablarını dəstəkləyən nümayişlərdə iştirak etdiyinə görə Çar xəfiyyəsi tərəfindən təqib edilmişdir.

1905-ci ildə Məhərrəm Gəncə Xeyriyyə Cəmiyyətinin rəhblərindən biri Hacı Ələkbər Hacıyevin qızı Zümrüd xanımla evlənmişdir.

1906-cı ildə bu ailədə İmran Tağızadə dünyaya göz açmış, mükəmməl təhsil almış, ömrünün axırına kimi, ömür yoldaşı Dilarə xanımla birlikdə pedaqoji işdə çalışmışdır.

Bu xeyirxah insanlar - İmran müəllim və Dilarə xanım həm də gözəl ailə başçıları olmuşlar. Onların oğlu Surxay Tağızadə respublikanın dövlət və ictimai xadimlərindən biri kimi tanınmış, ömür yoldaşı Solmaz xanımla nümunəvi Azərbaycan ailəsinin gözəl ənənəsini davam etdirmişlər. Solmaz xanım da kənd təsərrüfatı mütəxəssisi, alim-aqronom, tərəvəzçilik sahəsində bir sıra tədqiqat işinin müəllifidir. Onlar birlikdə cəmiyyətdə ləyaqətli mövqe tutmuş, 3 övlad böyüdüb başa çatdırmışlar. Oğulları Namik və İmran hüquqşünas, qızı Validə isə musiqi müəllimidir.




Kitabda verilmiş "Xatirələr ailə albomunda" şəkilaltı mətnlər bu nəslin, ailənin tarixini kövrək və xoş, əlamətdar anları, günləri, görüşləri yada salır. Sanki bir ailənin, nəslin həyatı haqqında unudulmaz xatirələr kitabı göz önündə canlanır.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində, milli dəyərlərimizin qorunmasında, təbliğində belə xatirə kitablarının böyük əhəmiyyəti vardır. Yüksək səviyyədə yazılmış tariximizin unudulmuş səhifələrini yeni materillarla zənginləşdirməkdə böyük rol oynamış görkəmli insanları unutmamaq baxımından yüksək elmi-bədii səviyyədə yazılmış belə kitabların nəşri təqdirəlayiq, xeyirxah, nəcib işdir.

**Sabir GƏNCƏLİ,**
**tarix elmləri doktoru.**

# Heydər Əliyev Beynəlxalq Aeroportu sərnişin dövriyyəsi üzrə yeni rekord müəyyənləşdirmişdir

**Heydər Əliyev Beynəlxalq Aeroportu sərnişin dövriyyəsinin həcminə görə yeni rekord müəyyənləşdirmişdir. Ötən il ərzində hava limanı ümumilikdə 4,43 milyon sərnişinə xidmət göstərmişdir ki, bu da 2017-ci ilin göstəricisindən 9 faiz çoxdur.**



2018-ci il ərzində aeroportun baza aviadaşıyıcıları - AZAL və "Buta Airways" müvafiq olaraq 1,89 milyon və 442 min sərnişin daşımışdır. Beynəlxalq reyslərlə ümumilikdə 3,81 milyon sərnişin, regional reyslərlə isə 620 min sərnişin daşınmışdır. Beynəlxalq reyslərin ümumi sayının 33,4 faizi AZAL-ın, 11,6 faizi "Buta Airways"in, 55 faizi isə xarici aviaşirkətlərin payına düşmüşdür.

2018-ci ildə beynəlxalq sərnişin aviadaşımaları üzrə aviaşirkətlərin onluğuna AZAL və "Buta Airways" ilə yanaşı "Turkish Airlines", "FlyDubai", "Aeroflot", "UIA" (Ukrayna Beynəlxalq Hava Yolları), "Air Arabia", "S7 Airlines", "Qatar Airways", "Utair", "Lufthansa" və "SCAT" daxil olmuşdur. Onlar ümumilikdə 1,15 milyon sərnişinə xidmət göstərmişdir.

2018-ci ildə İstanbul, Moskva, Dubay, Kiyev, Şarja, Tehran, Bağdad, Tbilisi, Doha və Təl-Əviv beynəlxalq istiqamətlərin ən populyar onluğuna daxil olmuşdur. Bu istiqamətlər üzrə 2,7 milyon sərnişin uçmuşdur.

Ötən il Heydər Əliyev Beynəlxalq Aeroportuna ümumilikdə 36 xarici sərnişin aviaşirkəti müntəzəm uçuşlar həyata keçirmişdir.

Heydər Əliyev Beynəlxalq Aeroportu sərnişin və yük daşımalarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük terminalının buraxılış gücünə görə Azərbaycanın və regionun ən böyük aeroportudur.

2017-ci və 2018-ci illərdə hava limanı həmçinin ardıcıl olaraq ikinci il Rusiya və MDB ölkələrinin bütün hava limanları arasında göstərilən xidmət səviyyəsinə görə "Skytrax World Airport Awards" versiyasına görə ən yaxşılar siyahısına başçılıq etmiş, həmçinin maksimal "5 Ulduz" statusuna layiq görülmüşdür.

**Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidməti.**

# Fuad Cəfərov qısa müddətdə güclü şahmatçılar yetişdirmək bacarığı olan istedadlı məşqçi idi

Əməkdar məşqçi, beynəlxalq hakim, Respublika Şahmat Mərkəzinin ilk direktoru, şahmat turnirlərinin peşəkar təşkilatçısı Fuad Cəfərov Azərbaycanın şahmat tarixində özünəməxsus iz buraxıb. Onun əməyi sayəsində çoxlu sayda istedadlı şahmatçılar yetişib. Mən şahmatın sirlərinə ilk dəfə məhz Fuad müəllimin dərnəyində yiyələnməyə başlamış, bu sahədə nailiyyətlərimi onun sayəsində qazanmışam. Fuad Cəfərov qısa müddətdə güclü şahmatçılar yetişdirmək bacarığı olan istedadlı məşqçi idi. Mən şahmat dərnəyində on aylıq məşqlərdən sonra Bakı çempionatında ikinci yeri tutaraq tanınmağa başladım. Sərxan Quliyev, Loğman Quliyev, Rauf Məmmədov, Eltac Səfərli kimi istedadlı şahmatçılar məhz Fuad Cəfərovun yetirmələridir. Onun tələbələri respublika və beynəlxalq miqyaslı yarışların mükafatçıları sırasında yer alıblar.



Bu sözləri Fuad Cəfərovun istedadlı tələbələrindən olan Əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim İlqar Bacarani AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

İ.Bacarani bildirib ki, Moskvada ikiillik ali məşqçilər kursunu bitirmiş F.Cəfərov nəinki məşqçi və pedaqoq kimi nüfuz qazanıb, həm də beynəlxalq dərəcəli hakim kimi Azərbaycanı mötəbər yarışlarda uğurla təmsil edib. 1983-cü ildə keçirilən ittifaq səviyyəli yarışda isə məşqçisi olduğu Bakı Pionerlər Sarayının komandasının gümüş medala layiq görülməsində Fuad Cəfərovun əməyi böyük idi.

"Sevindirici haldır ki, şahmat turnirlərinin peşəkar təşkilatçısı olan Fuad Cəfərovun xatirəsinə həsr edilən ənənəvi yarışlar hər il keçirilir. Bu gün yekun vurulan növbəti yarış - Fuad Cəfərov memorialında ümumilikdə 200 şahmatçı mübarizə aparıb. Bu turnirlər görkəmli şahmat məşqçisinin xatirəsinə yüksək ehtiramın nümunəsidir", - deyə İ.Bacarani bildirib.

**AZƏRTAC**

# İşsiz və iş axtaran şəxslərdən rüşvət almaqda təqsirləndirilən şəxslər məsuliyyətə cəlb olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən kompleks islahatlar çərçivəsində son illər sosial müdafiə sisteminin əhatəliliyi və səmərəliliyi daha da artırılıb. Həmçinin sosial siyasətin başlıca istiqamətlərindən biri kimi əhalinin məşğulluğu və sosial təminatı sahələrində idarəetmənin təkmilləşdirilməsində, eləcə də ünvanlılıq və şəffaflığın təmin edilməsində əhəmiyyətli irəliləyişlərə nail olunub. Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək mənfi amillərə, o cümlədən əhatə etdiyi geniş əhali kateqoriyasına görə sosial-müdafiə sferasının mühüm komponentlərindən olan əmək və məşğulluq sistemində baş verə biləcək sui-istifadə hallarına və vətəndaşların hüquqlarının pozulmasına yönəlmiş digər qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində fəaliyyət göstərən 161- "qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş vətəndaş müraciətləri üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Baş İdarə tərəfindən aparılmış birgə ilkin araşdırmalarla korrupsiya şəbəkəsi yaradan vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa olunub.

Belə ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş təxirəsalınmaz əməliyyat tədbirləri ilə Dövlət Məşğulluq Xidmətinin Cəlilabad rayon Məşğulluq Mərkəzinin direktoru vəzifəsini icra edən Mehdi Abasovun Mərkəzin baş məsləhətçisi Hafiz Allahyarov və qeyriləri ilə əlbir olaraq, müxtəlif vədlər verməklə işsiz və iş axtaran şəxslərdən ümumilikdə 7400 manat məbləğində rüşvət almalarına, habelə eyni məqsədlə bir nəfər rayon sakinindən min manat rüşvət almağa cəhd etmələrinə şübhələr üçün əsaslar müəyyən olunub. Fakta görə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və 311.3.2-ci (rüşvət alma təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə Mehdi Abasovun və Hafiz Allahyarovun xidməti otaqlarında və yaşadıqları ünvanlarda məhkəmənin müvafiq qərarları ilə aparılmış axtarış nəticəsində içərisində ayrı-ayrı şəxslərdən pul alınmasını təsdiqləyən yazılar olan kitabçalar, işaxtaran vətəndaşların qeydiyyatı kitabı, müxtəlif arayışlar, habelə iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər aşkarlanaraq maddi sübut kimi götürülüb.

Cinayət işi üzrə toplanmış ilkin sübutlar əsasında M.Abasov və H.Allahyarov şübhəli şəxs qismində tutulublar.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**AZƏRTAC**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Açıq tenderə dəvət edir:
Tender 1 lot üzrə keçirilir:

Lot 1 - Azərbaycanın görkəmli ədəbiyyat xadimlərinin təntənəli yubiley tədbirlərinin keçirilməsi, ədəbi müsabiqələrin, festivalların mükafatlandırma mərasimlərinin, poeziya günlərinin, yerli və beynəlxalq əhəmiyyətli iclasların, konfransların, müşavirələrin təşkili işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi (Əlaqələndirici şəxs: Aslan Cəfərov, 012-493-30-05) ünvanından ala bilərlər.

İştirak haqqı
Lot 1 - 200 manat
Hesab: AZ78CTRE00000000000002178501
VÖEN: 1700015381
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZO13601000000000003944
S.W.İ.F.T.: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər: son 3 ildə (illər üzrə) görülmüş işlər və onun ümumi dəyəri haqqında məlumat; İddiaçının son bir illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr, həmçinin bu məlumatları əldə etmək məqsədi ilə müraciət edilə biləcək şəxslərin adı, telefonu; Tədbirlərin təşkili üzrə analoji iş təcrübəsi barədə məlumat; yekun müqaviləsinin yerinə yetirilməsində istifadə ediləcək əsas avadanlıqlar haqqında məlumat; yekun Müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edən və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri haqqında məlumat; Dövlət Sosial Müdafiə Fonduna verilmiş hesabatın surəti və Dövlət Sosial Müdafiə Fondunun arayışı, Məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2018-02-15 saat 18:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2018-02-22 saat 18:00-a qədər Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2018-02-25 11:00 tarixində Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

Bakı Xoreoqrafiya Akademiyası
Açıq Tenderə Dəvət Edir
Tender 1 (bir) lot üzrə keçirilir:
Lot-1. Abadlıq işlərinin görülməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Lot üzrə iştirak haqqı 50 (əlli) manat. Tel.: (012) 597 24 82 (Həmid Məhərrəmov)

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Dövlət Xəzinədarlıq Agentliyi
KOD: 210005
VÖEN: 1401555071
Müxbir Hesabı:
AZ41NABZ01360100000000003944
SWİFT CTREAZ 22
Bakı Xoreoqrafiya Akademiyası
Hesab: AZ30CTRE00000000000002178201
VÖEN: 1400151881
Təsnifat kodu: 142340
Səviyyə: 7
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi, 75.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 fevral 2019-cu il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 26 fevral 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 27 fevral 2019-cu il tarixdə saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.




## SURİYADA KÜRDLƏR RUSİYANIN KÖMƏYİNƏ ÜMİD EDİR



Suriyada olan kürd qoşunları və türk ordusu ABŞ prezidenti Donald Trampın regiondan ABŞ qoşunlarının çıxarılmasına dair gözlənilməz qərarından sonra yaranan problemlərin həllində Rusiyaya ümid bağlayır. Bu barədə "Sputnik" informasiya agentliyi "The Washington Post" nəşrinə istinadən xəbər verib.

Kürd mənbələrinin sözlərinə görə, onlar Suriya hökuməti ilə razılaşamanın əldə olunmasına yardım etməsi üçün Rusiya tərəfinə artıq müraciət ediblər. Bununla da, kürdlər Türkiyə Silahlı Qüvvələri tərəfindən gözlənilən hücumun qarşısını almağa çalışırlar. Belə bir təhlükə ABŞ qoşunlarının regiondan çıxarılmasından sonra yarana bilər.

Nəşrin məlumatına görə, bütün bunlar Rusiyanın Suriyada "aparıcı oyunçu" kimi mövqeyinin güclənməsindən xəbər verir.

"Demokratik Birlik" partiyasının kürd liderlərindən biri Saleh Muslim nəşrə bildirib ki, rəsmi Moskva bununla bağlı heç bir öhdəlik üzərinə götürməyib. O deyib: "Biz ruslara öz yol xəritəmizi təqdim etdik və sadəcə qərarı gözləyirik".

Bununla yanaşı, Saleh Muslimin sözlərinə görə, kürdlərin Rusiya tərəfinə təqdim etdiyi təklif Suriya hökumətinə kürdlərə özünüidarə hüququ olmaqla, muxtariyyət hüququ verilmək qarşılığında Suriya hökumətinə bütün ölkə ərazisində suverenliyi bərpa etmək hüququ verir.

Eyni zamanda, xəbər verilir ki, Rusiya, hələlik nə türklərə, nə də kürdlərə hər hansı bir yardım etməyə hazır olduğunu bildirməyib.

Xatırladaq ki, 2018-ci il dekabrın 24-də ABŞ prezidenti qoşunların Suriyadan çıxarılması haqqında sərəncam imzalayıb. Ağ Ev tərəfindən qoşunların çıxarılması barədə bəyanat verildikdən sonra ABŞ-ın müdafiə naziri Ceyms Mettis və ABŞ-ın İŞİD-lə mübarizə üzrə xüsusi nümayəndəsi Brett Makqerq istefaya gedib.

## MÜSƏLMAN ALƏMİNDƏ GƏRGİNLİK: "ÇİN İSLAMI" YARADILIR



Çin dövlətinin nəzarətində olan Çin İslam Cəmiyyəti "Çin İslamı" ideyasını irəli sürdüyü toplantıda ölkənin müsəlman toplumuna "sosialist dəyərlərin" tədris olunacağını açıqlayıb. Bu barədə "Sputnik" informasiya agentliyi Türkiyə mətbuatına istinadən xəbər verib.

Cəmiyyətin yaydığı məlumata görə, "Ölkəmizdə İslamın çinləşməsi üçün 2018-2022-ci illəri əhatə edən beş illik iş planı" adlı seminarda müsəlman icmalarına Çin Kommunist Partiyasının İslam üzərində çalışmalarını daha da artırması, İslamın çinləşməsinə sadiq qalmaları, Çin İslamını və Çin tipli sosializmi təşviq etmək çağırışları edilib.

Çin İslam Cəmiyyətinin sədri toplantıda sosialist dəyərlər üzərinə dərslər və tədrisin verilməsi üçün lazımi tədbirlərin görülməsini və ənənəvi Çin mədəniyyətinin məscidlərdəki ayinlərə daxil edilməsini istəyib.

Digər tərəfdən, mərkəzi Pekində olan Çin İslam İnstitutunun dekan müavini Qao Canfu da "Global Times" nəşrinə verdiyi açıqlamasında "İslamiyyətin çinliləşdirilməsi" dövründə İslamda heç bir dəyişikliyin olmayacağını bildirib. Lakin Qao Canfunun açıqlamasında "İslamdakı inanc, davranış və ideologiyada dəyişiklik edilməmək şərti ilə sosial dəyərlərə uyğun hala gətirilməlidir" ifadəsi bir sıra suallar yaradır.

Qeyd edək ki, Çinin Yunnan əyalətinin Veyşan bölgəsində yerli rəhbərlik tərəfindən ötən həftələrdə "qanundan kənar dini təlim" vermək iddiası ilə üç məscid ibadətə bağlanıb. Məscidlərin qapadılması üçün gələn hüquq mühafizə orqanları əməkdaşları ilə çinli müsəlmanlar arasında gərginlik yaşanıb. Hazırda həmin məscidlərin aqibəti bilinmir.

## GÜRCÜSTANDA "H1N1"ə YOLUXANLARIN SAYI GÜNBƏGÜN ARTIR




Gürcüstanda qrip virusu ilə xəstəxanaya yerləşdirilənlərin sayı 616 nəfərdən 845 nəfərə qədər artıb. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, hazırda reanimasiya şöbəsində olan xəstələrin sayı isə 44 nəfərə çatıb.

Gürcüstanın Səhiyyə Nazirliyi ölkə əhalisinə qripin ilkin əlamətləri müşahidə olunduğu zaman dərhal həkimə müraciət edilməsi xəbərdarlığı edib. "Bu, o deməkdir ki, qrip ciddi xəstəlikdir, müalicəyə və diqqətə ehtiyac var. Son laboratoriya məlumatlarına görə, "H1N1" virusu səbəbindən 14 nəfər həyatını itirib. Ölüm səbəbləri arasında xəstəliyin fəsadları və gecikmiş müalicə dayanır", - deyə səhiyyə naziri David Serqeyenko bildirib.

Səhiyyə naziri həmçinin qeyd edib ki, ölkədə virusa qarşı dərman çatışmazlığı müşahidə olunmur. O deyib: "İlkin yardım üçün müarciət edənlərin sayında artım qeydə alınıb. Belə ki, əvvəl müraciətlərin sayı gün ərzində 420 idisə, indi bu rəqəm 602 olub. Əlbəttə, yaxşı haldır ki, xəstələr vaxtında həkimə müraciət edirlər".

Qeyd edək ki, hazırda Gürcüstanda "donuz qripi" kimi bilinən "H1N1" virusuna yoluxanların sayı hər 100 min nəfərə 256 nəfər düşür. Qripin pandemiya halına çevrilməsi üçün isə bu rəqəm hər 100 min nəfərə 450-500 nəfər olmalıdır.

## TRAMP SƏRHƏDDƏ DİVAR TİKİNTİSİNƏ VƏSAİT TAPIB



ABŞ prezidenti Donald Trampa məlumat verilib ki, o, Meksika ilə sərhəddə divar tikintisi, həmçinin bütün ölkə ərazisində mühəndislik işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan, lakin istifadə olunmayan məbləğdən yararlana bilər. Bu barədə "Sputnik" informasiya agentliyi "NBC News" telekanalına istinadən xəbər verib.

Telekanalın məlumatına görə, Donald Trampı bununla bağlı Pentaqondan olan məmurlar məlumatlandırıblar.

Məlumata görə, Tramp ABŞ Quru Qoşunlarının mühəndislik korpusunun fonduna daxil olan vəsaitin bir hissəsindən - 13,9 milyard dollardan istifadə edə bilər.

Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp Meksika ilə sərhəddə betondan yox, poladdan divar tikiləcəyini bəyan edib. "Biz artıq betondan yox, poladdan divar tikməyi planlaşdırırıq. Bu, daha etibarlı və qənaətcil olacaq. Əla qərardır. Polad ABŞ-da istehsal olunur" - deyə Tramp özünün "Twitter" səhifəsində qeyd edib.

Ağ Ev rəhbəri, həmçinin əlavə edib ki, vitse-prezident Mayk Pens və onun işçiləri ABŞ-ın Demokratlar Partiyasının nümayəndələri ilə məhsuldar görüşlər keçirərək sərhəddə təhlükəsizliyin bir çox detallarını müzakirə ediblər.

## QƏTƏR İRAQIN BƏRPASINA 1 MİLYARD DOLLAR VERƏCƏK



Qətər Əmiri şeyx Təmim bin Həməd Al Tani İraq Prezidenti Bəhram Salehlə Dohadakı danışıqlarda əmirliyin respublikada infrastrukturun bərpa edilməsinə 1 milyard dollar investisiya yatırmağa hazır olduğunu təsdiq edib.

"Trend" agentliyinin məlumatına görə, görüşdə iki ölkənin rəhbərləri münasibətlərin ilk növbədə iqtisadi, ticarət, investisiya sahələrində, infrastruktur və turizm layihələrində möhkəmləndirilməsi imkanlarını müzakirə ediblər.

Eyni zamanda, liderlər iqtisadi və ticarət münasibətlərinin inkişafı üçün Qətərin Həməd və İraqın Umm Kəsr limanları arasında birbaşa gəmi yolunun istifadəyə verilməsi ilə bağlı razılığa gəliblər.

Məlumat üçün qeyd edək ki, İraq prezidenti yanvarın 9-dan Qətərdə rəsmi səfərdədir. Bəhram Saleh Dohaya ABŞ-ın dövlət katibi Mayk Pompeo ilə danışıqlardan sonra gəlib. Bildirilik ki, Mayk Pompeo da strateji dialoq konfransında iştirak etmək üçün bazar günü Qətərə səfər edəcək.

## YAPONİYADA İŞÇİLƏRƏ MƏCBURİ YUXU TƏTBİQİ



Yaponiyada işçilərdən yuxularını düzgün idarə etmələri tələb olunur. Bunun üçün onlara hətta pul belə ödəniləcək. Bu barədə "TRT" telekanalı "Guardian" qəzetinə istinadən məlumat yayıb.

Verilən xəbərə görə, Yaponiyada işçilərin yuxusuz işə davam etmələrinin ölkə iqtisadiyyatına vurduğu zərər illik 138 milyard dollar təşkil edir.

Ölkədəki işəgötürənlər yuxusuz işləyənlərin özlərinə daha çox zərər verdiklərini səbəb göstərərək, onlara gün ərzində yuxu saatı ayrılması üçün vaxt verilməsinin daha faydalı olacağını, bunun da işin bir hissəsi kimi qəbul edilməsinin lazım gəldiyini qeyd edirlər.

"Guardian" qəzetinin xəbərinə görə, işəgötürənlər gün ərzində işçilərin yatıb dincəlmələri üçün səs-küy olmayacaq xüsusi otaqlar hazırlayırlar. Məlumata görə, kiçik texnologiya şirkətlərində başlayan bu təşəbbüs hazırda sürətlə yayılmaqdadır.

Ötən il Tokio şəhərində fəaliyyət göstərən "Nextbeat" adlı bir şirkət həm qadın, həm də kişi işçilər üçün iki xüsusi yuxu otağı hazırlayıb.

Bildirilir ki, bu otaqlar səs-küyə qarşı xüsusi olaraq izolyasiya edilib. Həmçinin yuxu gətirən çayların dəmləndiyi otaqlarda kompüterlər və mobil telefonlar kimi elektron cihazların istifadəsi qadağandır. ■

# Azercell-in uğurlu fəaliyyəti diqqət mərkəzindədir

**Azercell "İnsanların Seçimi üzrə Stevie Mükafatı" ilə telekommunikasiya sahəsi üzrə "İlin Ən Sevilən Şirkəti" adına layiq görülüb.**




Azərbaycanın mobil rabitə bazarının lider mobil operatoru "Azercell Telekom" MMC nailiyyətləri sırasına "İnsanların Seçimi üzrə Stevie Mükafatı"nı əlavə edərək, telekommunikasiya sahəsi üzrə "İlin Ən Sevilən Şirkəti" adını qazanıb. Məlumat üçün bildirək ki, məhz bu nominasiya çərçivəsində şirkətlər beynəlxalq səviyyədə aparılan açıq səsvermə yolu ilə dəyərləndirilib. Ümumilikdə, sorğuda 22 mindən çox insan iştirak edib. Qaliblər 74 xalqı təmsil edən şirkət və fərdlər tərəfindən irəli sürülmüş 3900-dən artıq namizəd arasından seçilib. 2018-ci ildə ölkəmizdə mobil rabitənin keyfiyyətinin yüksəldilməsi, regionlarda 4G şəbəkəsinin genişləndirilməsi, ölkənin bütün bölgələrində abunəçilərin sürətli internetə çıxışının təmin olunması, müasir xidmətlərin, eləcə də yeni biznes həllərinin tətbiq edilməsi, abunəçi xidmətlərinin modernləşdirilməsi, həmçinin mobil texnologiyalar vasitəsilə həyatın asanlaşdırılması istiqamətində keçirilən layihə və bir sıra digər təşəbbüslər Azercell şirkətinin bu mükafatı qazanmasına əsas verib.

Məlumat üçün bildirək ki, "Stevie" mükafatının məqsədi dünyanın müxtəlif ölkələrində uğur qazanmış şirkətlərin tanıdılmasıdır. Müsabiqənin missiyası nümunəvi təşkilatların profilinin yüksəldilməsi, mətbuat, işgüzar aləm və geniş ictimaiyyət arasında fərqlənən qurumların fəaliyyətinin beynəlxalq səviyyədə qiymətləndirilməsidir.

Qeyd edək ki, Azercell Telekom 2018-ci ildə, həmçinin "İlin Telekommunikasiya Şirkəti" və "İlin Korporativ Sosial Məsuliyyət Proqramı (Avropa üzrə)" nominasiyalarında Bürünc "Stevie" mükafatına layiq görülüb. ■

# Qeyri-qanuni dini fəaliyyətlə məşğul olan əcnəbi vətəndaşlar ölkəmizdən deportasiya ediliblər

**Yanvarın 10-da Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş birgə tədbir nəticəsində Bakı şəhəri Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsində yerləşən yaşayış evində bir qrup əcnəbi vətəndaşın da iştirak etdiyi qeyri-qanuni dini fəaliyyət aşkarlanıb.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, qeyd olunan ünvanda humanitar yardım adı altında missionerlik fəaliyyəti, o cümlədən qeyri-qanuni dini təbliğatla məşğul olan əcnəbi vətəndaşlar barəsində müəyyən edilmiş tələblərə uyğun olaraq inzibati qaydada protokol tərtib edilərək məhkəməyə göndərilib. Məhkəmənin qərarına əsasən, həmin əcnəbi vətəndaşlar cərimə olunub və ölkəmizdən deportasiya ediliblər.

**AZƏRTAC**

---

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Açıq Tenderə Dəvət Edir

Tender 10 (on) lot üzrə keçirilir:

Lot 1. Servis işləri (havalandırma, su nasosu, generatorlar, lift, kamera, elektron xəritə)

Lot 2. Təsərrüfat mallarının satınalınması

Lot 3. Dəftərxana ləvazimatlarının satınalınması

Lot 4. Kartriclərin satınalınması

Lot 5. Jezllərin satınalınması

Lot 6. Cihazların dövri metroloji yoxlaması işləri

Lot 7. Alkotestr, narkotestrlər üçün müştüklərin satınalınması.

Lot 8. BDYPİ-yə bilavasitə tabe olan Ekoloji Nəzarət bölüyünün əsaslı təmiri işləri

Lot 9. Avtomobillərin servis xidmətləri işləri

Lot 10. BDYPİ-nin elektrik xətlərinin yenilənməsi işinin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xırdalan-Binəqədi şosesi, 4 ünvanından ala bilərlər.

Əlaqə telefonu: 590-81-60

Əlaqələndirici şəxs: Əvəz Məmmədzadə

İştirak haqqı:

Hər lot üzrə 150 (yüz əlli) manat

Dövlət Xəzinədarlıq Agentliyi

Hesab:

AZ45CT00000000000002078506

VÖEN 1401555071

Kodu: 210005

VÖEN: 9900063851

M\H: AZ41NABZ01360100000000003944

S.W.İ.F.T: CTREAZ22

Vəsait alan: Baş Dövlət Yol Polisi İdarəsi

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər tələb olunmur.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 fevral 2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 26 fevral 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, Xırdalan-Binəqədi şosesi, 4 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 fevral 2019-cu il saat 11:00 tarixində Bakı şəhəri, Xırdalan-Binəqədi şosesi, 4 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

---

## BİLDİRİŞ

Alkotester üçün müştüyün satınalınması üzrə "Kotirovka sorğusu" üsulu ilə satınalınmasına dair müsabiqədə "MEDİGROUP" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 10.01.2019-cu il tarixdə ƏDV-daxil 10620,00 manat (on min altı yüz iyirmi manat 00 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

"Azərpambıq ASK" MMC Dizel yanacağının "Azneft" İB Bakı Neft Bazasından bölgələrdəki zavod və məntəqələrinə daşınması üçün təkliflər sorğusu üsulu ilə satınalma keçirir.

Maraqlanan təşkilatlar telefon nömrəsinə tel.: +994 (12) 464-92-18 (16), və ya elchin.huseynov@azercotton.com elektron ünvana müraciət edə bilərlər.

**Ünvan: Bakı şəh., Yasamal r-nu, Tbilisi prospekti 35, ASK PLAZA, 3-cü mərtəbə.**

---

## Mingəçevir Şəhər Mənzil Kommunal Təsərrüfatı Kombinatı mal-materialların satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir.**

**Lot-1.** Çöl süpürgəsi, ot toxumu, ağac tingləri, bəzək kolları, gül-çiçəklərin, digər mal-materialların və ehtiyat hissələrinin satınalınması.

İşlərin görülməsi müddəti bir ildir. Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Hüseynova Yeganə**

**Telefon: 0242761807**

**Ünvan: Mingəçevir şəh., C.Əliyev-16**

Maraqlananlar əsas şərtlər toplusunu aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**İştirak haqqı lot 1- 20 AZN**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Mingəçevir şəhər Mənzil Kommunal Təsərrüfatı Kombinatı*

*Hesab: AZ30AİİB33010019442900239129*

*VÖEN: 2700172811*

*Bank: Mingəçevir Kapital Bank*

*Kodu: 200297*

*VÖEN: 9900003611*

*Müxbir hesabı: AZ37NABZ01350100000000001944*

*S.W.İ.F.T. BİK AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 15 fevral 2019-cu il saat 11:00-dək aşağıdakı sənədləri təqdim etməlidirlər:

—tenderdə iştirak etmək üçün yazılı müraciət;

—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

—iştirakçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

—müvafiq işlər üzrə mənşə və uyğunluq sertifikatları;

—vergilərə və digər icbari ödənişlərə dair borcların olmaması haqqında müvafiq vergi orqanından arayış;

—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

—işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;

—iddiaçılar tender təklifini 1 % bank təminatı ilə 25 fevral 2019-cu il saat 11:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər;

—tender təklifi açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender zərfləri 26 fevral 2019-cu il saat 14:00-da Mənzil Kommunal Təsərrüfatı Kombinatında açılacaqdır.

Əlavə məlumatları əlaqələndirici şəxs: Hüseynova Yeganədən əldə etmək olar.

İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

**Tender Komissiyası.**

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət İqtisad Universiteti Bakı şəhəri, Yasamal rayonu, M.Muxtarov küçəsi, 194 saylı ünvanda Azərbaycan Dövlət İqtisad Universitetinin yeni tədris binasının tikintisi işlərinin satınalınması məqsədi ilə

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot-1.** Yeni tədris binasının tikintisi işlərinin satınalınması.

Tenderdə iştirak etmək üçün iddiaçılar 1000 manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 6 ünvanında yerləşən Azərbaycan Dövlət İqtisad Universitetinin əsas tədris binasından ala bilərlər.

**Əlaqələndirici şəxs: Aqil Əhmədov.**

**Əlaqə telefonu: (012) 492-59-23**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*VÖEN 1700091281*

*Bankın adı: "Kapital Bank" ASC-nin Səbail filialı*

*VÖEN 9900003611*

*M/H AZ37NABZ01350100000000001944*

*H/H: AZ96AİİB33010019443507362105*

*Kodu: 200059*

*SWİFT: AİİBAZ2X*

**İştirak haqqı hec bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-tikinti işlərinin göstərilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən lisenziyanın surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 fevral 2019-cu il tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 26 fevral 2019-cu il saat 17:00-adək Azərbaycan Dövlət İqtisad Universitetinin, Bakı şəhəri, İstiqlaliyyət küç. 6 ünvanında yerləşən əsas binasına yazılı formada təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 fevral 2019-cu il, saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin, Bakı şəhəri, İstiqlaliyyət küç. 6 ünvanında yerləşən əsas tədris binasının, akt zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

---

**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən 08 yanvar 2019-cu il tarixində "Respublika" qəzetində elan edilmiş Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin inzibati ərazisindən cirkab suyun daşınması işlərinin satınalınmasına dair kotirovka sorğusunun ləğv olunduğu bildirilir.**

**Tender Komissiyası.**

---

Mirzəyev Xəlil Müseyib oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Xətai r-nu, M.Hadi küçəsi, ev-41, mənzil-127).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 29112 N-li 26 aprel 1996-cı ildə dövlət qeydiyyatına alınmış "Behbud" kiçik müəssisəsinin nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

---

## 2 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 Lot üzrə aparılır:**

**Lot-1.** Odun yanacağının alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərində üstünlük veriləcək meyarlar: ən səmərəli qiymət, yüksək keyfiyyət və qrafikə uyğun malların təhvil verilməsi. Müəssisələrin maddi-texniki bazasının standartlara uyğun olması.

İştirakçılar tenderin əsas şərtlər toplusunu, LOT-1 – 50 (Əlli) manat; iştirak haqqı ödədikdən sonra, tenderin əlaqələndirici şəxsi Elnur Salahovdan ala bilərlər (ünvan: Xaçmaz şəhəri. H.Əliyev prospekti 7. Tel.: 023 32-5-12-08)

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

*Təşkilatın adı: 2 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi*

*Hesabı:*

*AZ74CTRE00000000000002164605*

*VÖEN: 7701497581*

*Ödəyən bank: Dövlət Xəzinədarlığı Agentliyi*

*Kod: 210005*

*VÖEN: 1401555071*

*Müxbir hesabı:*

*AZ50NABZ01350100000000032944*

*S.W.İ.F.T. BİK CTREAZ22*

Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 18 fevral 2019-cu il saat 17:00-a kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*

*—iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalı);*

*—tender təklifinin dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*

*—iddiaçının hüquqi statusunu təsdiq edən sənədlər - rekvizitləri, qeydiyyat şəhadətnaməsinin, nizamnamənin və lisenziyanın surəti;*

*—iddiaçının potensial imkanlarının olması haqqında texniki məlumatı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçirdiyi ölkə və rekvizitləri;*

*—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərinin olub-olmaması haqqında arayış.*

Tender təklifi və bank zəmanəti 26 fevral 2019-cu il tarixdə saat 17:00-da Tender Komissiyasına təqdim edilməlidir.

Təklif zərfləri 27 fevral 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası aşağıda göstərilən Lot üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 Lot üzrə aparılır:**

**Lot-1.** Tədris Cərrahiyyə Klinikasına lazım olan tibbi sərfiyyat mallarının alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. 1 lot üzrə təqdim olunacaq mallar 2019-cu ildə veriləcək. Tender təkliflərində üstünlük veriləcək meyarlar: ən səmərəli qiymət, yüksək keyfiyyət və qrafikə uyğun malların təhvil verilməsi. Müəssisələrin maddi-texniki bazasının standartlara uyğun olması.

İştirakçılar tenderin əsas şərtlər toplusunu LOT-1 – 1200 (bir min iki yüz) AZN iştirak haqqı ödədikdən sonra, tenderin əlaqələndirici şəxsi T.Mirzəyevdən ala bilərlər (ünvan: Bakı şəhəri, M.Mirqasımov 14, Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Tender Komissiyası. Tel.: 0512263046)

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

*ABB Nəsimi Fillalı*

*M/H AZ03NAZ01350100000000002944*

*VÖEN: 9900001881*

*KODU: 805614*

*S.W.İ.F.T İBAZAZ2X*

*Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası*

*H/H AZ87İBAZ38090019442249905207*

*VÖEN/İNT 1402715001*

**Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.**

Tenderdə iştirak etmək istəyənlər "18" fevral 2019-cu il saat 17:00-a kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*

*—iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*

*—tender təklifinin dəyərinin 3%-i həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*

*—iddiaçının hüquqi statusunu təsdiq edən sənədlər - rekvizitləri, qeydiyyat şəhadətnaməsinin, nizamnamənin və lisenziyanın surəti;*

*—iddiaçının potensial imkanlarının olması haqqında texniki məlumatı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərinin olub-olmaması haqqında arayış.*

Tender təklifi və bank zəmanəti 26 fevral 2019-cu il tarixdə saat 17:00-dək Bakı şəhəri, M.Mirqasımov 1004, Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə klinikası Tender Komissiyasına təqdim edilməlidir.

Təklif zərfləri 27 fevral 2019-cu il, saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ərazi Maliyyə Hesablaşma Mərkəzlərinin aparıcı məsləhətçiləri İsmayıllı rayonu üzrə aparıcı məsləhətçi Eldar Məmmədova, bacısı**

**ŞÜKUFƏ xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun rəhbərliyi və kollektivi vaxtından əvvəl doğulmuş uşaqların patologiya şöbəsinin müdiri Adilə xanıma, atası**

**SABİR müəllimin**

**vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**BDU-nun Tətbiqi-Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru akademik Fikrət Əliyev və institutun kollektivi AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Qurban Yetirmişliyə, anası**

**TAMAM xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
11.01.2019